


Zəhra Muradova

# SAĞLAMLIQ VƏ SƏNƏTKARLIQ OCAĞI
# ŞUŞA

BAKI-2022

ZƏHRA MURADOVA

# SAĞLAMLIQ VƏ SƏNƏTKARLIQ OCAĞI ŞUŞA

Bakı – 2022

Elmi redaktorlar: **Akif Əliyev,**
pedaqogika üzrə elmlər doktoru

**Rəhilə Misirxanova,**
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Məsləhətçi: **Vasif Quliyev,**
Azərbaycan yazıçılar və Jurnalistlər birliklərinin üzvü,
"Şuşa" qəzetinin baş redaktoru

Rəyçi: **Həqiqət Hacıyeva,**
pedaqogika üzrə fəlsəfə doktoru, dosent

Texniki redaktor: **Gülnarə Şahmuradova,**
Azərbaycan Respublikasının Təhsil İnstitutu, elmi işçi

"Orxan" NPM. Bakı-2022. səh 72

***Müəllifin oxuculara təqdim etdiyi bu kitabda Şuşanın sağlam iqlim şəraiti, onun yaranma səbəbləri, həmçinin Şuşa sənətkarlığı və onun inkişafına təsir göstərən amillər haqqında ətraflı məlumat verilmişdir. Kitabla tanış olduqca oxucular sağlam yaşamağın və uzunömürlülüyün sirlərini öyrənmiş olacaqlar.***

İZBN 978-9952-37-922-8

**DOI https://doi.org/10.36719/2022/72**

# GİRİŞ

Zəngin tarixi və mədəniyyəti ilə tanınan Şuşa Azərbaycanın qədim şəhərlərindən biridir. Şuşanın təbiəti əsrarəngiz gözəlliyə malikdir. Onun sıldırım qayaları, yaşıl meşələri, çəmənlikləri, saf bulaqları, bu yerlərin gözəlliyinə xüsusi rəng qatan flora və faunası, göz oxşayan seyrangahlı mənzərəsi heyranedici bir görünüş yaradır. Buradakı meşələr öz zəngin ağacları ilə sanki sıldırım qayaları yaşıl örpəyə bürümüşdür. Dağların ətəyindən axan çaylar ona ayrı bir gözəllik qatır. Çayların şırıltısı sıx meşə ağaclarının xışıltısına qarışıb xüsusi harmoniya yaradır. Bu səsləri eşitdikdə sanki könül oxşayan bir simfoniya dinləyirsən. Dinlədikcə özünü başqa bir aləmdə hiss edirsən. Bir sözlə, Şuşa möhtəşəm görünüşə malik heyranedici, möcüzəli bir şəhərdir. Dahi Nizami Gəncəvinin təbiəti vəsf edən misraları sanki Şuşanı xatırladır:

***İyulda dağlara lalələr səpər,***
***Qışını baharın nəsimi öpər.***
***O yaşıl meşəsi cənnətə bənzər,***
***Şən ətəklərinə bağlamış kövsər.***

Əsrarəngiz təbiətə, füsünkar gözəlliyə malik olan bu şəhər iqlim şəraiti ilə də fərqlidir. Sağlamlıq

üçün yararlı olan bu iqlim şəraitinə görədir ki, Şuşa əhalisi arasında yaradıcılıq qabiliyyəti olmayan insanlara çox az rast gəlinir. Şuşada yaşayan insanlar güclü bədii təfəkkürə və təxəyyülə malikdirlər. Bunun da əsasında Şuşanın təbiəti, iqlimi xüsusi yer tutur. Şuşanın heyrətamiz gözəlliyə malik təbiəti, iqlimi insan sağlamlığında nə qədər böyük rol oynayırsa, təbii sərvətləri də sənətkarlığın inkişafında o qədər mühüm əhəmiyyətə malikdir.

Tarix boyu Şuşada yaşayan sənətkarlar şərəfli yaradıcılıq yolu keçmişlər. Sənətkarlar estetik zövqləri ilə yaratdıqları əsərlərdə və ya düzəltdikləri məmulatların üzərində buranın həyat tərzini, milli dəyərlərini heyranedici bir tərzdə nəzərə çatdırmışlar.

Şuşanın zəngin təbiətindən və Şuşa mədəni mühitinin zənginliyindən qaynaqlanan sənətkarlıq məktəblərində milli mədəniyyətimizin tanınmış nümunələri yetişmişdir. Xurşudbanu Natəvan (şair, tikmə, rəssam), Nəvvab (rəssam, şair, nəqqaş, xəttat, musiqişünas), usta Rəcəbəli Qarabaği (şərbaf), usta İsmayıl Qarabaği (toxucu), Kərbəlayi Əzim Qarabaği (şərbaf), Lətif Kərimov (xalçaçı-rəssam), Səfixan Qarabaği (memar), Hacı Qasım Zülalov (sərrac), usta İmanqulu Qarabaği (nəqqaş), usta Qəmbər Qarabaği (nəqqaş), Ağapaşa Qarabaği (zərgər), Humay xanım Əzizova (xalçaçı), Əli Qarabaği (xəttat), Mir-

zə Bünyad bəy Hacıyüzlü (xəttat) və digərlərini göstərmək olar.

Şuşada digər sənət növləri də durmadan inkişaf etdirilirdi. Musiqi alətləri, oyma, tikmə, keçəçilik, xarratlıq və s. sənətlər üzrə görkəmli sənətkarlar yetişmişlər.



***Ruh oxşayan əsrarəngiz təbiət.***

# İQLİMİ SAĞLAMLIQ RƏHNİ OLAN DİYAR

Şuşa şəhəri hündürlüyü dəniz səviyyəsindən 1400-1800 metr arasında dəyişən dağlıq bir ərazidə – Kiçik Qafqazın Qarabağ silsiləsinin mərkəzi hissəsində yerləşir. Ölkəmizin cənubunda, dağlıq ərazidə yerləşdiyindən Qarabağın dağları burada soyuq küləklərin qarşısını kəsir. Yay aylarında sərin, yağışlı havalar yayın istisini hiss etməyə qoymur. Səhərlər duman olur və saat 11-12-dən sonra hava tam açılır. Burada günəşli günlərin sayı da çox olur. Daima sərin, zəif şimal küləyi əsir. Buranın havası, suyu təmiz, saf olur və sağlamlıq üçün zəmin yaradır. Buna səbəb Şuşada meşələrin çox geniş sahəni əhatə etməsidir. Məlumdur ki, meşə əvəzedilməz təbii resurs olub təbiətin mühafizəsində, ekoloji tarazlığın saxlanılmasında mühüm rol oynayır. Meşələr həmçinin torpaqda su balansını nizama salır, kəskin iqlim dəyişikliyinin qarşısını alır, güclü küləklərin təsirini zəiflədir, sel, sürüşmə, sahillərin uçması və digər bu kimi təbiət proseslərinin qarşısını alır. Bir sözlə, meşələr insanların sağlamlıq mənbəyidir.

Şuşada havanın yüksək səviyyədə təmiz olmasının bir səbəbi də məhz meşələrdir. Ağaclar fotosintez prosesi ilə yanaşı, havanın təmizlənməsində filtr rolunu oynayır, havanı zəhərli bakteriyalardan təmizləyən fitonsid mad-

dələri ifraz edirlər. Meşələrdə qırxa yaxın fitonsid maddəsi ifraz edən ağac və kol növü mövcuddur. Ağaclar bir-birindən fərqli miqdarda və fərqli xassəli ***fitonsidlər*** ifraz edirlər. Maraqlı cəhət odur ki, ayrı-ayrı ağac və kolların ifraz etdiyi fitonsidlər özünəməxsus təsiredici xassəsilə müxtəlif xəstəliklərin səbəbi olan virusları törədən mikrobları, xəstəlik törədən çöpləri məhv edirlər. Məsələn, ***şam ağacı*** vərəm xəstəliyini törədən çöpləri, ***qovaq*** və ***palıd ağacları*** qanlı ishal çöplərini məhv edir. Digər ağaclardan fərqli olaraq ***ardıc*** ağaclarının fitonsidləri difteriya, göy öskürək, qarınyatalağı çöplərini və digər bir çox xəstəlikləri törədən mikrob-bakteriyaları məhv edir. Sidr ağaclarının buraxdığı fitonsid xoş ətirli olub havaya sərinlik gətirir. Bu ağaclar nəfəsalma sisteminin möhkəm və sağlam olmasında mühüm rol oynayır. Bütün bu ağaclar Şuşa dağlarının bəzəyidir. Ən çox fitonsid ifraz edən iynəyarpaqlılar fəsiləsinə aid olan ardıc ağacıdır. İynəyarpaqlı ağaclar il boyu, enliyarpaqlı ağaclar isə yalnız yarpağı olan dövrdə fitonsid ifraz edir. Bir hektar ardıc meşəsi gün ərzində 30 kiloqram fitonsid efirli maddə ayırır. Ardıc bitkisinin 40-dan çox növü var: boz, tikanlı, kəskin iyli, boylu (15-60 m hündürlükdə), sabin və s. ağacları, həmçinin yayğın və sürünən kolları. Hündürboylu ardıc ağacları yüksək dağ yamaclarında bitir.

Ardıc, şam, sidr və palıd meşələrində mikrob yox dərəcəsindədir. Şuşada havanın təmiz olmasının mü-

hüm bir səbəbi də məhz meşələrdə palıd, ardıc və sidr ağaclarının daha geniş yayılmasıdır. Beləliklə, digər ağaclardan fərqli olaraq ardıc ağacı ətraf mühitə daha çox fitonsid maddəsi buraxmaqla yanaşı, havada olan xeyli miqdarda və qısa zaman ərzində mikrob-bakteriyaları təbii yolla məhv edir. Ağacların bu xassələrinə görə fitonsidləri "havanın vitamini" adlandırırlar. Bu da yaradanın bir möcüzəsidir. Fitonsidlər gündüz saatlarında, günəşli havalarda daha çox və surətlə gərəksiz bakteriyaları havadan təmizləyir. Müqayisə üçün deyə bilərik ki, 10 hektar ardıc meşəsi Sumqayıt kimi şəhərin havasını tamamilə mikroorqanizmlərdən təmizləmə imkanına malikdir. Burada günəşli günlərin sayının çoxluğu və meşə zolaqlarının sıxlığı fotosintez prosesinə müsbət təsir göstərir, havanın oksigenlə daha çox və sürətlə zənginləşməsinə səbəb olur. Bax, elə buna görə də Şuşa bütün fəsillər üçün kurort şəhərinə çevrilib. Eyni zamanda meşə ağaclarının meyvələri, iynələri, yarpaqları da dərman maddələrinin hazırlanmasında mühüm əhəmiyyətə malikdir. Buna misal aşağıdakıları göstərmək olar:

İynəyarpaqlı ağacların iynələrinin tərkibində olan maddələr bir çox xəstəliklərin, xüsusilə Sinqa xəstəliyinin müalicəsində əhəmiyyətli təsirə malikdir. Məhz bu səbəbdəndir ki, şam ağaclarını "həyat ağacları" adlandırırlar. Ardıc ağacının meyvəsi və toxumları insan orqanizmi üçün zəruri olan bir çox mineral maddələrlə zən-

gin olub, müalicəvi əhəmiyyət daşıyır. Ardıc meyvəsindən mədə, qara ciyər, bağırsaq və digər xəstəliklərin müalicəsində istifadə edilir. Ardıc yağı ağrıkəsici sürtkü yağı olmaqla yanaşı, dərinin təbii qalmasında, saçların uzanmasında da mühüm əhəmiyyətə malikdir. Ardıc ağacının toxumlarından ədviyyat kimi də istifadə edilir. Palıd ağacı qozalarının tərkibindəki maddələr antioksidant xarakterlidir. Onlardan bir çox xəstəliklərin müalicəsində dərman maddələri hazırlanır. Həmin dərmanlar şəkərli diabet, qanaxma, astma, ürək, qan-damar və digər xəstəliklərin müalicəsində istifadə olunur. Sidr ağaclarının yarpaqlarından dərman maddələri, onların ifraz etdiyi fitonsidlərdən isə ətirlərin alınmasında istifadə edilir.

İnsanların mübtəla olduqları xəstəliklər zamanı ağac və bitkilərin bu kimi xassələri və onlardan hazırlanan dərmanlardan necə istifadə olunması haqqında təbiblərin məsləhəti əhali arasında geniş yayılmışdır.

Xan qızı (Xurşidbanu) bu dərmanların hansı xəstəlikdə, necə istifadə olunmasını şeirində göstərmişdir:

**Şuşa dağlarının məlhəmi**

***Soyuq dəysə bişirərdik samırı,***
***Çiban olsa gicitkanın xamırı,***
***Dəmrov üçün toplayardıq mamırı.***
***Yaraları sağaldardı çilədağ,***
***Neçə dərdin dərmanıydı soğanaq.***

***Sətəlcəmə qantəpərin darağı,***
***Sodalara şantərənin arağı.***
***Loğman idi eldə bağayarpağı,***
***Hər yaranı, yaman şişi deşərdi,***
***Dərdin bağrı bax, beləcə bişərdi.***

***Ardıc yazda qana dərman olardı,***
***Dəli mixək yeli əldən salardı.***
***Pişikotu qəlb dərdinə qalardı,***
***Zəncirotu çatar gözün dadına,***
***Ağrı kəsən deyərdilər adına.***

***Gülxətmiydi sinəmizin məlhəmi,***
***Zirə çayı yox edərdi bəlğəmi,***
***Kortu yesən azaldardı dərd, qəmi.***
***Moruq çöpü istiliyi salardı,***
***Sətəlcəmin qarşısını alardı.***

***Mədənin dostudur ayı gilası,***
***Boz yaraya əlac dovşan alması,***
***Andız alar öskürəkdən qisası***
***Hər bir dərdə gəzib carə tapardıq,***
***Lazım gəlsə dağı-daşı çapardıq.***

***Əvəlikdən çiyər xeyir görərdi,***
***Sancı üçün hər kəs yarpız dərərdi.***
***Saqqov ata andız həyat verərdi,***
***Sağaldardıq tiftikanla yelini,***
***Murdarcayla buzovların belini.***

***Quşəppəyi qanaxmanın dərmanı,***
***Dəri yansa təbib dəvədabanı.***
***Zökəm tutsa dəmləyərdik yovşanı,***
***İçən kimi baş ağrısı gedərdi,***
***Qarabağda özgə dərman hədərdi.***



**Min bir dərdin dərmanı ardıc ağacları**



*Ardıc meyvələri*



Bütün bu misralar sanki xalq təbabəti ilə məşğul olan hər hansı bir təbibin söylədikləri idi. Buradan görünür ki, Xan qızı nəslinə layiq davranışı ilə özü də dədə-babaları kimi xalqına məhəbbətini hər sahədə göstərirdi. Yeri gələndə onlar üçün təbib də ola bilirdi.

Şuşa zəngin təbiəti, saf, təmiz havası ilə yanaşı, təbii sərvətlərinə, flora və faunasına, bulaq suyunun və mineral sularının tərkibinə görə daha çox diqqəti cəlb edir. Şuşanın bulaqlarından axan su zirvələrdə toplanan qarın əriyərək dağlardan süzülə-süzülə, torpaqda minerallarla zənginləşə-zənginləşə monomolekulyar, yəni bioloji aktiv suya çevrilir ki, bu da hüceyrələrin yenilənməsi üçün əvəzsiz mənbədir. Dünyada elə su mənbələri var ki, onlar insan həyatında mühüm rol oynayaraq orqanizmin sağlamlığında, təfəkkürünün inkişafında, yaradıcılığının püxtələşməsində əhəmiyyətli təsirə malikdir. Şuşanın dağlarından süzülərək axıb-gələn və süxurların arasından çağlayıb çıxan göz yaşı kimi şəffaf bulaq suları da belə sulardandır. Bunlar bioloji aktiv, tərkibində kifayət qədər makro və mikro elementlərlə zəngin mineral maddələrdən ibarət sağlamlığın rəhni olan sulardır. Bioloji aktiv su orqanizmin cavan qalmasına, ömrün uzanmasına, təfəkkürün inkişafına təsir edən əsas amillərdəndir. Tərkibi insan orqanizmi üçün gərəkli olan kimyəvi maddələrlə zəngin

# Həyat – təmiz, saf bulaq suyu










***İsa bulağı*** ***Şor bulaq***



***Mineral sular***



*Mamayı bulağı*

“Turşsu” və “Şırlan” kimi keyfiyyətli mineral suları, həmçinin “Dəmir bulaq”, “Qotur bulaq” və digər bu kimi sağlamlığa yarıyan müalicə əhəmiyyətli bulaq sularının tərkibi aydınlaşdırıldıqda onların bir çox xəstəliklərin şəfası üçün təbii dərman olduğu məlum olur. “Turşsu” karbonatlı sudur. Minerallarla zəngin olan bu suyun tərkibində kalsium və maqnezium duzlarının çoxluğu ilə fərqlənir ki, bu da ona daha təsirli müalicəvi əhəmiyyət verir. “Dəmir bulaq” suyu da qazlı sudur, tərkibində dəmirin çoxluğu ilə əlaqədar olaraq ona dəmir su adı verilmişdir. Bu su “Narzan” suyundan heç də fərqlənmir, hətta qazlılığına görə ondan yüksək hesab olunur. Bəzən bu suya “Azərbaycanın narzanı” da deyirlər. Daşal-

tı çayının sahilində çıxan "Qotur bulaq" suyu qotur xəstəliyini sağaltdığı üçün belə adlanır. Bu su həmçinin dəmrovun, dəri ləkələrinin təmizlənməsi və müxtəlif yaraların da məlhəmidir.

Yuxarıda göstərilənlərdən meşə ağaclarının həmişə yaşıl və parlaq olmasının səbəbi aydın olur. Tanrı bu kiçik şəhər əhalisinə dolanışığı və sağlamlığı üçün hər neməti bəxş edib, sanki bu iqlim şəraiti yalnız insanların sağlamlığına yönəlib və onların orqanizminin möhkəmlənməsinə səbəb olub. Əbəs yerə xalq arasında deyilmir ki, Şuşa mənsub olduğu əsrarəngiz təbiəti və müalicəvi iqlimi ilə "Qafqazın bəzəyi və sağlamlıq ocağıdır".

Bütün bu gözəlliklərin və faydalılığın kökü torpaqdan başlayır. Şuşanın havası, suyu şəfalı olduğu kimi, torpağı da insan orqanizmi üçün gərəkli olan mineral maddələrlə zəngindir. Bu mineral maddələrin tərkibində insan sağlamlığında, insan orqanizmi üçün lazım olan makro və mikro elementlərin çoxluğu Şuşanın xüsusi iqlim şəraitinə malik olmasına zəmin yaradıb. Belə ki, orqanizm üçün zəruri olan makro elementlərdən kalsium (Ca), azot (N), fosfor (P) bu torpaqlarda bitən ağacların, kolların, meyvələrin, bitkilərin, mineral maddələrin tərkibində var, həmçinin mineral suların da tərkibində az deyil.

Makro elementlərdən olan kalsium sümüklərin, dişlərin əmələ gəlməsində mühüm rol oynayır.

Onunla zəngin olan fıstıq, qoz, fındıq, şabalıd kimi bir sıra meyvə ağacları Şuşa meşələrində daha çoxdur.

Azot isə insanın orqanizmində zülal molekulları şəklində əzələnin əmələ gəlməsində mühüm rol oynayan və orqanizmin böyüməsini, həyat fəaliyyətini təmin edən elementlərdəndir. Bu da qoz, alma, armud ağaclarının meyvələrində, bəzi meşə göbələklərində, Şuşada çox asan cücərən, hətta dağlarda belə, təbiətin yetişdirdiyi bəzi paxlalı bitkilərin tərkibində mövcuddur.

Bunlarla yanaşı, fosfor da orqanizmdə sümüklərin və hüceyrələrin tərkibində, insan beynində əqlin inkişafında da xüsusi rol oynayır. Kalsiumdan sonra, demək olar ki, fosfor orqanizmdə ən çox yayılmış elementlərdəndir. O isə əsasən yulaf, paxla, buğda, mərci, arpanın tərkibində, həmçinin alma, armud, fındıq, qoz və digər meyvələrdə olur. Beləliklə, bir daha aydın olur ki, bədənin əsas dayaq sistemi sümük və əzələnin tərkibi bu üç elementin birləşməsindən ibarətdir. Şuşanın əsrarəngiz təbiətində bu elementlərin bolluğu xüsusi maraq doğurur.

Makro elementlərlə yanaşı, insan orqanizmində müəyyən funksiyalar daşıyan 70-dən artıq mikro elementlər (0,001% və ya daha da az miqdar olan) də mövcuddur. Onlar insanların həyat və fəaliyyəti üçün əlverişli mühit yaranmasında müstəsna əhə-

miyyət kəsb edir. Bu elementlər hava şəraiti yaxşı olan torpaqlarda, suxurlarda, suda, mineralların tərkibində kifayət qədər var. Şuşa şəhəri də məhz belə şəhərlər sırasına daxildir. Maraqlı burasıdır ki, bu elementlərin hamısı Şuşada bitən bitkilərin, meyvələrin, giləmeyvələrin, mineral və içməli suların da tərkibində var. Bunlardan dəmir (Fe) hemoqlobinin əsas tərkib hissəsi olub, oksigenin təminatını qarşılayır, həmçinin hüceyrəyə su daşıyır, maqnezium (Mg) bağırsağın absorbsiya prosesinə kömək edir və həmçinin əzələnin əmələ gəlməsində də fəal iştirak edir. Sink (Zn) yağların, karbohidratların sintezi və parçalanmasında mühüm rol oynayır, orqanizmi ağır metalların təsirindən qoruyur, natrium (Na) digər qidalarla yanaşı, əsasən, xörək duzu vasitəsilə orqanizmə ötürülür, maddələr mübadiləsində iştirak edir, osmotik təzyiqi normallaşdırır və hüceyrənin yaranması üçün mühüm elementdir, (Na) natriumla yanaşı (K) kalium da hüceyrənin yaranmasında xüsusi rol oynayır, məhz hüceyrəni canlandıran onun tərkibinin əsasını təşkil edən natrium və kaliumdur. Xlor (Cl) mədə şirəsində zülalın parçalanmasında əsas rola malikdir. Brom (Br) əsəb sisteminin normallaşdırılmasında, yod (J) qalxanvari vəzin inkişafında, flüor (F) diş sümüyünün möhkəmləndirilməsində böyük təsir gücü ilə diqqəti cəlb edir. Mis (Cu), əsasən qara ciyərdə olur, orqanizmdə bir neçə

funksiya daşıyır, gümüş (Ag) qaraciyərdə, gözdə, beyində çox olur, fermentlərdə inhibitor rolu oynayır və bu kimi digər mikro elementlərin də orqanizmdə mühüm proseslərdəki mövqeyini görmək olar. Bu elementlərin hər biri maddələr mübadiləsinin, qan dövranının nizamlanmasında, hüceyrələrin yenilənməsində və digər orqanlarda gedən proseslər üçün özünəməxsus xüsusi əhəmiyyətə malikdir. Bütün bu proseslərdə günəş şuaları və onun insan orqanizmində yaratdığı D vitamini isə əsas daşıyıcı rolunu oynayır. Şuşada günəşli günlərin sayının çoxluğu D vitamininin daha çox yaranmasına və insan orqanizmində gedən kimyəvi proseslərin tənzimlənməsinə, həmçinin orqanizmin möhkəmlənməsinə səbəb olur. Rus alimi K.A.Timiryazevin bir fikri təbiətdə baş verən bu proseslərin həqiqətə uyğunluğunu belə ifadə etmişdir: ***"Bitki günəşlə yer arasında vasitəçidir".***

Bitkilər bu elementləri kökləri vasitəsilə torpaqdan, sudan və digər mineral maddələrdən qəbul edirlər ki, insanlar da onunla qidalanaraq orqanizmlərində bu elementlərə olan tələbatını ödəyirlər. Maraqlı burasıdır ki, bütün təbii yeyinti məhsullarının tərkibində həmin elementlərin çoxluğu torpağın tərkibinin zəruri mineral maddələrlə zəngin olmasından xəbər verir. Məlumdur ki, iqlimi yaxşı olan ərazilərdə bitkilər üçün kifayət qədər mikroele-

mentlər mövcuddur. Bu isə məhz Şuşa torpaqlarına uyğundur. Bu səbəbdəndir ki, Qarabağda mövcud olan 606 növ dərman bitkisinin çox faizi Şuşada yetişir. "Təbiətin çiyəri" adlandırılan ağaclar, kollar yalnız insanlar üçün seyrəngah, söhbətgah yeri deyil, həmçinin dərman maddələrinin hazırlanmasında da istifadə olunur. Alma, armud, qoz, gilas, fındıq, qırmızımtıl fısdıq, şabalıd, zoğal, göyəm, tut, alça, püstə, əzgil, həmçinin kol bitkiləri-yemişan, zirinc, qarağat, moruq, qaraçöhrə, itburnu, innab, quşüzümü də bu növ bitkilər sırasındadır. Bitkilər aləmində-ayıdöşəyi, babinaçiçəyi, qayaçiçəyi, göyrəban, çobanyastığı, boymadərən, bağayarpağı, ətirşahı,

**Şuşanın florası – insan həyatına şəfa**







qatırquyruğu, yovşan, kəcələr, gicitkan, qırxbuğum, dağtərxunu, ağa çiçəyi, darçın, darçın nanəsi, əvəlik, baldırqan, mayasarmaşığı (meşədə bitən dəvətikanı, durna otu, bənövşə), dağ laləsi, göy çiçək, gülxətmi, kəklikotu, qızılgül, qırxbuğum, quşəppəyi, üzərlik və digər dərman bitkilərinə, otlara, çiçəklərə tamaşa edəndə onların orqanizm üçün əhəmiyyəti ilə yanaşı, həm də göz oxşayan gözəllikləri yadda qalır. Sevimli şairimiz Osman Sarıvəllinin dediklərini yada salaq:

***Sağım meşə, solum meşə,***
***Səni gəzdim mən həmişə.***
***Necə qıyım, ay bənövşə,***
***Öz kökündən üzüm səni?!***

***Quzuqulaqlı dağ ətəyi,***
***Körpə baldırğan özəyi,***
***Dağ gülü, qaymaqçiçəyi,***
***Misralara düzüm səni.***

Burada meşələrin və dağların mövcudluğu, təbii ehtiyatların çox olması Şuşanın faunasını təşkil edən quşlara və heyvanlara da sığınacaq verir. Meşələrdə ağacdələn, bayquş, dağ qartalı, qarğa, çalağan, qaranquş, sağsağan, turac, bozkəklik, qızılquş, sığırçın, bülbül kimi quşlar geniş yayılıb. Heyvanlardan isə qonur ayı, pələng, iti dişli çöl pişiyi, vaşaq, bəbir, tül-

kü, çaqqal, maral, dağ keçisi, dovşan, oxlu kirpi və digərləri yüksək yamaclarda, meşənin dərinliklərində tez-tez görünür. Şuşanın təmiz havası, mineral maddələrlə zəngin suyu və torpağı insan orqanizmi üçün tələb olunan bütün məhsulları yetişdirir. Bu şəhərdə yaşayan insanların sağlam və uzun ömürlü, həmçinin gözəl səs tembrinə və iti zəkaya malik olmaları da həmin cəhətlərlə əlaqədardır.

***Tarixdə izi olan uzunömürlü şuşalılardan Qarabağ memarlığında öz dəsti xətti ilə tanınan Kərbəlayı Səfixan Qarabaği (1788–1910) 122 il ömür sürüb.***

***1939-cu ildə "respublika Xalq Musiqi Yaradıcılığı" olimpiadasında "Çanaqqala rəqsi"ni yastı balabanda ifa edən 146 yaşlı Həsən Həmbəliyev (1793-1943) də Şuşa sakini idi.***

***Xalq şairi Səməd Vurğunun 1936-cı ildə 157 yaşlı Qabil kişi (1779–1937) ilə Şuşada görüşü hər kəsdə xüsusi maraq doğurmuşdu. Qabil kişi böyük şairimiz Molla Pənah Vaqifi görən insanlardan biri idi.***

Təbii ki, bu qədər uzunömürlülüyün səbəbini araşdırmaqla, bu yerin havası, suyu, torpağı haqqında daha dərin məlumatlar əldə edilir. Tədqiqatlar göstərmişdir ki, Şuşanın iqlim şəraiti insan orqanizmində gedən maddələr mübadiləsini sürətləndirir, orqanizmi gücləndirir və bir çox xəstəliklərin müalicəsi üçün zəmin yaradır. Xüsusilə qan azlığı, xroniki malyariya, vərəm, plevrit, yorğunluq, göy öskürək, xro-

niki bronxit, astma, anemiya, kəskin infeksiya xəstəlikləri, uşaq xəstəlikləri və s. xəstəliklərin müalicəsində böyük əhəmiyyət kəsb edir. Çəmənliklərdə, yaxud dağlarda, meşələrdə göz oxşayan güllər, çiçəklər, bitkilər, həm də min bir dərdin dərmanıdır. Məhz bu səbəbdən də Şuşanın flora və faunası dərman maddələrinin hazırlanması, əczaçılıq, həkimlik sənətinin inkişafı üçün əsas mənbələrdən sayılır.

Meşə ağaclarından palıd, söyüd, zirinc, tut, armud, zoğal, yemişan, qırmızımtıl fıstıq ağacları, vitaminlərlə zəngin olan və meşələrə füsunkar gözəllik verən qarağat, böyürtkən, göyəm, itburnu, moruq və digər giləmeyvələr dərman vasitələrinin hazırlanmasında mühüm rol oynayır. Hipertoniya xəstəliklərinin bütün mərhələlərində xəstəliyin aradan qaldırılmasında çox böyük faydası olan Şuşa palıd ağaclarının yarpaqlarından hazırlanan dərman vasitələri əvəzolunmazdır. Burada dərman maddələri kimi mövcud olan meyvələr də sağlamlığın rəhnidir. Məsələn, meşədə bitən yemişandan ürək-damar xəstəlikləri üçün dərman preparatı hazırlanır. Yemişandan hazırlanan şirələr isə mədə-bağırsaq xəstəliklərində istifadə olunur.

Bunlardan başqa, Şuşanın zəngin və keyfiyyətli dərman bitkilərindən aşağıdakıları da göstərmək olar: ayıdöşəyi, gülxətmi, babınaçiçəyi, göyzəban, çobanyastığı, boymadərən, bağayarpağı, ətirşah, zən-

# Ağaclar nəfəsdir, həyatdır...



*Güc, dəyanət və ucalıq rəmzi olan uzunömürlü palıd ağacları*



*Cökə*



*Ağcaqovaq*

ci çiçəyi, qatırquyruğu, yovşan, kəcəbər, gicitkan, qırxbuğum, dağ tərxunu, ağaçiçəyi, darçın, dağ nanəsi, bənövşə, dağ laləsi, çaytikanı, sarıçiçək, çəpər sarmaşığı, dağdağan və s. Eyni zamanda nəzərə almaq lazımdır ki, bitkilərin gövdələri, meyvə və giləmeyvələrin şirələri də qüvvətli fitonsid xassələrinə malikdir. Hətta tünd rəngli meyvə və giləmeyvələr daha çox antimikrob xassələrlə əlamətdardır. Odur ki belə giləmeyvələrin – qaragilə və qarağatın şirələrindən həm tibbdə, həm də ev şəraitində geniş istifadə olunur. Bu da məlumdur ki, müalicə əhəmiyyətli bitkilərin bir çoxu Qarabağın dağlarından yığılırdı.

Həmin bitkilərdən hazırlanan dərman maddələrinin sayəsində Şuşada əczaçılıq sənəti inkişaf edirdi. XVIII əsrin ortalarında dərman bitkiləri əsasında əczaçılıqla, boyaq bitkiləri əsasında isə rəngkarlıqla məşğul olan sənətkarların sayı artıq 30 nəfərə çatmışdır.

Qədim dövrlərdən Azərbaycanın bir çox bölgələrindəki kimi Qarabağda, xüsusilə Şuşada mövcud olan dərman bitkilərinin zənginliyi xalq təbabətinin inkişafına və xalq təbiblərinin yetişməsinə, geniş fəaliyyət göstərməsinə zəmin yaratmışdır. Təbii ki, bu cəhət Şuşanın zəngin florası ilə bağlı idi. Burada hazırlanan dərmanların, xalq təbiblərinin şöhrəti artıq uzaq ölkələrdə də məlum idi.

Həmin dövrlərdə Qarabağda 606 növ dərman bitkisi mövcud idi ki, bunlardan bir çoxu məhz Şuşa florasına aid idi. Bunlardan da 32 növü nadir dərman bitkilərinə aid olub Azərbaycanın "Qırmızı kitabı"na daxil edilmişdir. Şuşa dərman bitkilərinin bioloji aktivliyi çox olduğundan müalicəvi xüsusiyyətləri də geniş idi. Bu növ dərman bitkilərindən hazırlanan dərmanlar ürək-damar, mədə-bağırsaq, qaraciyər, böyrək, dəri, diabet və bir çox xəstəliklərin müalicəsinə müsbət təsir göstərirdi. Qarabağın, Şuşanın şəfalı çiçəkləri və otları, onlardan hazırlanan dərmanlar Roma, Yunanıstan, Misir əczaxanalarında da satılırdı. Məlumdur ki, xalq təbabəti çox qədim tarixə malikdir. El arasında ona türkəçarə də deyirlər. Onunla məşğul olan nənə-babalar bu təbabət dərmanlarının hazırlanma üsullarını və ondan istifadə qaydalarını nəsildən-nəsilə keçirməklə gələcəyə ötürüblər. Təbiidir ki, burada da səhvlərə yol verilirdi və bəzi bitkilər insan orqanizmində zəhərlənmələrə, hətta ölümə belə, səbəb olurdu. Lakin bunlar da təcrübədən keçdikcə təkmilləşir, gərəkli bitkilərdən düzgün istifadə olunur və yararsız cəhətləri haqqında məlumatlar nəsildən-nəsilə ötürülürdü. Bütün bunların nəticəsidir ki, uyğun bitkilərdən dərman maddələri hazırlamaq, onlardan faydalanmaq bugünümüzədək gəlib çatmışdır.

Ən maraqlısı odur ki, hələ VII əsrdən başlayaraq ərəblər xalq təbabətini daha da sürətlə inkişaf etdirirdilər. Belə ki, bir neçə əsr müddətində ərəblərin öyrəndikləri 2600 dərman maddəsindən 1400-ü bitki mənşəli idi. Göründüyü kimi, xalq təbabəti haqqında məlumatlar qədim dövrlərdən başlayaraq Şərq ölkələrində – Çində, Hindistanda, Azərbaycanda, Misirdə və Yunanıstanda bununla bağlı tanınmış təbiblər tərəfindən xeyli işlər görmüşlər. Şərq ölkələrində təbabət elmi inkişaf edəndə Avropa ölkələrində tibb elmi ilahiyyatın xidmətçisinə çevrilərək kilsəyə və sxolastikaya (formal dəlillərə əsaslanan fikirlərə) tabe etdirilmişdi. Şərqdə gedən inkişafdan sonra xalq təbabəti müəyyən qədər Avropa ölkələrində də inkişaf etməyə başladı. Rusiyada isə xalq təbabəti XVIII əsrdən sonra geniş yayıldı.

Təbii ki, əvvəllər bütün bunlar təbiblər tərəfindən şifahi şəkildə xalqa ötürülürdüsə, sonralar yazılı mənbələrlə bu günümüzə qədər gəlib-çatmışdır. Qədim dövrlərdə yaşayan həkimlərdən İbn Sina, Hippokrat və digərlərinin əsərlərində xalq təbabətinə aid bütün müalicə və təbii dərmanların hazırlanma üsulları haqqında zəruri məlumat verilmişdir. Xalq təbabəti ilə bağlı yazılan, dərmanşünaslıq üçün sistemləşdirilən təbii 446 bitki və 44 heyvan mənşəli dərman maddələri haqqında ətraflı məlumat verilən Əbu Mənsurun kitabını M.Axundov ərəb dilindən alman

dilinə tərcümə etmiş və 1893-cü ildə Almaniyada nəşr etdirmişdir. XVII əsrdə Səfəvilər dövründə isə Azərbaycanın görkəmli alimi Seyid Məhəmməd Mömin 1400-dən çox bitki, heyvan və mineral tərkibli dərman vasitələri haqqında zəruri məlumatları nəzərə çatdırmışdır. Seyid Məhəmməd Möminin (vəfat tarixi 1698) Şah Süleyman Səfəviyə həsr etdiyi "Töypeyi həkim Mömin" kitabında 1400-dən çox bitki heyvan və mineral tərkibli dərman vasitələri haqqında xeyli məlumat vermişdir. Bu kitabın ərsəyə gəlməsində otuza yaxın təbibin əsərlərindən istifadə olunmuşdur. Göründüyü kimi, istər Avropa, istərsə də Rusiyada xalq təbabəti XVIII əsrdən sonra inkişafa başlamışdır. Diqqəti cəlb edən cəhətlərdən biri də budur ki, həmin ölkələrin alimləri məhz Qarabağ təbabəti və dərman bitkiləri haqqında daim məlumat toplamağa çalışıblar.

Tarixi inkişaf mərhələləri göstərir ki, həmin dövrlərdə dərman bitkiləri ilə işləyən, xalqın sağlamlığı sahəsində çalışan təbiblər müntəzəm olaraq səmərəli fəaliyyət göstərirdilər. Onların bəziləri ata-babalardan öyrəndikləri biliklər əsasında işləyir, bəziləri isə tibb elmini öyrənmək üçün müxtəlif şəhərlərə, ölkələrə üz tutur, təhsil alır, ixtisaslaşmış həkim kimi qayıdaraq xalqına, dövlətinə xidmət edirdilər. Bunlardan bir neçəsi ilə tanış olaq:

**Təbib Məşədi Ağa Məhəmmədhüseyn** 1774-cü ildə Şuşada doğulub. Şuşa mədrəsəsində təhsil almış bu gənc sonra Təbrizə getmiş və orada tibb elmini məşhur həkimlərdən öyrənmişdir. O, təhsilini bitirdikdən sonra Şuşaya qayıdaraq İbrahimxəlil xanın böyük oğlu Məhəmmədhəsən ağanın, daha sonra isə onun oğlu Cəfərqulu xan Cavanşirin şəxsi həkimi olmuşdur. İnsan bədəninin quruluşunu mükəmməl bilən Məşədi Ağa Məhəmmədhüseyn əli ilə mədə sallanmasını, sınığı sağaldır, baş ağrısını tənzimləyirdi. O, sarılıq, qızılca və digər xəstəlikləri bitki tərkibli məlhəmlərlə sağaldır və düzgün qidalanmanı əsas müalicə vasitəsi hesab edirdi.

Məşədi Ağa Məhəmmədhüseyn mükəmməl dərmanşünas və yaxşı əczaçı idi. O, Kirs, Keçəldağ, Qırxqız dağlarından topladığı dərman bitkilərindən müxtəlif dərmanları evində hazırlayır və çox ucuz qiymətə xəstələrə satırdı. Göründüyü kimi, o, əsasən, xəstənin cansağlığını düşünür, onun müalicəsi üçün çalışır, eyni zamanda dərman bitkilərinin nəyə qadir olduğunu müəyyənləşdirirdi, bunu da gələcək təbiblərə öyrədirdi.

**Mirzə Məhəmmədəli bəy Hacı bəy oğlu Qarabaği** 1775-ci ildə Şuşada dünyaya gəlmişdir. Şuşada məşhur həkimlərin yanında tibb elminin sirlərini öyrənən Mirzə Məhəmmədəli bəy İbrahimxəlil xanın şəxsi həkimi olub. Onun tətbiq etdiyi əsas dərman

vasitələri yaxma, sürtkü, toz şəklində səpmə, vanna qəbulu, müvafiq orqanların yuyulması, yemək, içmək, piltə, şam qoymaq və digər üsullardan istifadə edərək bir çox xəstələri məharətlə, böyük ustalıqla müalicə edirdi. Bütün bunlar üçün təbii bitki və meyvələrdən hazırlanmış məlhəmlərdən istifadə edirdi. Mirzə Məhəmmədəli bəyin törəmələri sonralar Hacıyev soyadını daşıyıblar.

**Axund Molla Əli** də tanınmış və çox mükəmməl bir təbib olub. O, əvvəl İbrahimxəlil xanın, sonra isə onun oğlu Mehdiqulu xanın şəxsi həkimi olmuşdur. El arasında böyük nüfuz qazanmış bu həkimi Mehdiqulu xan "Ərəstun bilikli həkim" adlandırırdı. Onun özünəməxsus müalicə yolları var idi. Təbii otlardan, çiçəklərdən, meyvələrdən hazırlanan dərmanları Şuşadan kənarda yaşayan və digər ölkələrdən gələn insanlar da alıb-aparırdılar.

**Məsih Əbdülhüseyn oğlu** 1802-ci ildə Şuşada doğulub. O, Xorasanda, Təbrizdə, Kərbəlada dini və dünyəvi təhsil almışdır. Təhsilini başa vurduqdan sonra Şuşaya qayıtmış və burada həkimlik etmişdir. Digər təbiblərdən fərqli olaraq o, həkimlik fəaliyyətində daha mürəkkəb üsullar tətbiq edirdi. Onun qocalmaya qarşı hazırladığı təbii dərmanlar daha maraqlı idi. Bunun üçün o, süsən gülü, maral payı, çödükotu, bal, cəfərotu və kastordan (qunduzun qoxu vəzindən hazırlanmış yağdan) istifadə edirdi. Bu dərman çox

sərfəli qiymətə xaricdən gələnlərə satılırdı, lakin yerli əhaliyə ucuz verir və ya onların özlərinə bunu hazırlamağı tövsiyə edirdi. Beləliklə, Məsih Əbdülhüseyn oğlu daha da zəngin təcrübəsi ilə xalq arasında daha çox sevilirdi.

**Təbib Əli Qarabaği** 1802-ci ildə Şuşada anadan olub. Təbib Əli ilk təhsilini Şuşada mollaxanada, mədrəsədə almışdır. Sonra Tehranda tibb təhsili alaraq ilk dəfə Təbrizdə həkimlik fəaliyyəti ilə məşğul olmuşdur. Sonra Şuşaya gəlmiş, həkim kimi məşhurlaşmış və Mehdiqulu xanın şəxsi həkimi olmuşdur. O, zəngin təcrübəsi ilə demək olar ki, bir sıra orqanların müalicəsində çox seçilirdi. Xüsusən, mədə, onikibarmaq bağırsaq xoraları, dezinteriya, öd kisəsi, böyrək, qara ciyər, ağ ciyər vərəmi, dəri, malyariya xəstəlikləri, şişlər, padaqra, babasil, qanaxma kimi xəstəliklərin qarşısını almaq üçün hazırladığı dərmanların hamısında Şuşa dağlarının meşə, çəmənlik bitkilərindən, onların toxumlarından, köklərindən, meyvələrindən, xüsusilə, qırxbuğum bitkisindən istifadə edirdi və səmərəsini də görürdü. Onun müalicəsi üçün otlar və toxumlardan, köklər və meyvələrdən hazırladığı bu dərmanlar ya həb, ya maye məlhəm şəklində olurdu. Təbib Əli Qarabaği 1854-cü ildə Şuşada vəfat etmişdir.

**Mirzə Əlinağı Qarabaği** 1818-ci ildə Şuşada anadan olub. Şuşada mədrəsədə oxuyub. Sonra Təbrizdə

tibb təhsili almışdır. Tehranda təbabətin sirlərini öyrənmək məqsədilə təhsilini davam etdirmişdir. Beləliklə, o, 12 ildən çox müddətdə Şərqin məşhur alim – təbiblərindən dərs almışdır. Təhsilini tamamlayandan sonra Mirzə Əlinağı Qarabaği vətənə dönmüş və Şuşada həkimliklə məşğul olmuşdur. Onun ən çox məşğul olduğu sahələrdən biri sinir sisteminin pozğunluğu ilə bağlı idi. Yalnız sinir sisteminin pozğunluğu deyil, o, ümumən, sinir xəstəlikləri və bir çox digər xəstəliklər üçün təmiz hava amilinin orqanizmə müalicəvi təsirini tətbiq edirdi. Tez-tez insanlarla, xüsusilə, xəstələrlə söhbət aparır və Şuşanın havasının məlhəm olduğunu söyləyirdi.

Mirzə Əlinağı Qarabaği klassik təbabətin müsbət cəhətlərini Qərb və Şərq təbabəti ilə özünəməxsus şəkildə birləşdirərək müxtəlif xəstəlikləri müalicə edə bilirdi. Bütün bunlarla yanaşı, xalq təbabətinin üsullarından istifadə edərək ayrı-ayrı xəstəliklər üçün dərmanlar hazırlayırdı. Maraqlı o idi ki, Mirzə Əlinağı bir çox dərmanların, məsələn, həzm problemlərinin, qan dövranının gücləndirilməsi və ürək-damar sisteminin müalicəsi, mədə bulanması, soyuqdəymə və öskürək müalicəsi üçün bütün dərmanların hazırlanmasında zəncəfildən istifadə edirdi. Həkimlər onun dərmanlarından daha çox bəhrələnirdilər.

**Mirzə Məhəmmədqulu bəy Molla Həsən bəy oğlu Qayıbov** 1819-cu ildə Şuşada anadan olub. İlk

olaraq Şuşada məktəbdə oxumuş, sonra İsfahanda tibb təhsili almışdır. Sonra Şuşaya qayıdaraq həkimlik etmişdir. O, İbrahimxəlil xanın qızı Gövhər ağanın şəxsi həkimi olmuşdur. Daha sonralar isə Xurşudbanu Natəvanın və Bəhmən Mirzə Qacarın yanında həkim işləmişdir. Mirzə Məhəmməqulu bəy həkimliklə yanaşı, həm də şair idi. Onun şeirləri dillərdə əzbər olub, xalq arasında sevilirdi. O, şeirlərini "Həkim" və "Təbib" təxəllüsü ilə yazırdı.

**Mirzə Sadiq Əbdülətif oğlu Lətifov** 1852-ci ildə Şuşada anadan olub. Mirzə Sadıq ilk təhsilini Şuşada almışdır. O, dövrünün ən böyük alimlərindən olan Mirzə Əbülhəsən həkimbaşından dərs almaq üçün Təbriz şəhərinə getmişdi. Uşaqlıqdan həkimlik sənətinə meylli olan, Mirzə Əbdülhəsəndən dərs alan Mirzə Sadiq bununla kifayətlənməyib, milliyyətcə alman olan bir nəfərin yanında təhsilini davam etdirmiş və daha mükəmməl bilik alaraq Şuşaya qayıtmışdır. O, burada həm təbib, həm də müəllim kimi fəaliyyət göstərmişdir. O, Xurşudbanu Natəvanın şəxsi həkimi olmuş, onun övladlarına dərs demişdir. Mirzə Sadiq həm də şair idi, "Təbib" və "Hicri" təxəllüsləri ilə şeir yazırdı.

Mirzə Sadiq Lətifov 1900-cü ildə vəfat etmişdir. Adlarını sadaladığımız bu həkimlərdən başqa Mirzə Əli bəy Mirzə Haqverdi bəy oğlu, Məhəmməd Bağır oğlu Qarabaği, Məşədi Hacı Qarabaği, Mirzə Allah-

qulu bəy, Mirzə Xələf İmanqulu oğlu, Hacı Mirzə Əliqulu Yusifzadə, Mirzə Məhəmməd bəy Dərgahqulu oğlu, Kərbəlayı Həsənqulu Xələf bəy oğlu, Mirzə Müqim bəy Qarabaği, Məşədi Mirbaba bəy Vəzirov və digərləri də Şuşada əczaçı-təbib kimi tanınmış şəxsiyyətlər olmuşlar. Göründüyü kimi, harada və kimdən təhsil almalarına baxmayaraq, o dövrün həkimləri xalq təbabətində işlənən dərmanların hazırlanmasına üstünlük vermişlər. Onlar belə hesab edirdilər ki, təbii yolla bitkilərdən hazırlanan dərmanlar daha əhəmiyyətli olub, heç bir fəsad törətmirlər.

Araşdırmalar göstərir ki, qədim tarixə malik Qarabağ bölgəsində Azərbaycanın xalq təbabəti XVII əsrdən başlayaraq daha sürətlə inkişaf edirdi. O, dövrdə 6-7 nəfər xalq təbibi yetişmişdi ki, onlar da dərman bitkilərilə insanları müalicə edirdilər. Onlar, əsasən Şuşanın sakinləri idilər. XVII-XVIII əsrlərdə bu dərmanları evdə hazırlayırdılar. XIX əsrdə artıq şəhərdə 20 nəfərə yaxın həkim var idi. Onlar da Şuşada "Nüsxəbəndlər məclisi"ndə fəaliyyət göstərir və dərmanları da burada hazırlayırdılar. Həmin dövrün tanınmış el təbiblərindən sayılan Mirzə Sadiq Lətifov, Mirbaba bəy Vəzirov, Məşədi Əkbər və başqaları bu məclisdə öz fəaliyyətləri ilə xalqa xidmət edirdilər. Məclisin fəal üzvləri olan xalq təbibləri dağlardan, çəmənliklərdən, çayların kənarından bitkilər toplayaraq dərman maddələri hazırlayır və xəstələrin müalicə-

## Təmizlik, paklıq rəmzi məscidlər



*Yuxarı Gövhər ağa məscidi*

sində istifadə edirdilər. "Nüsxəbəndlər məclisi"nin rəhbəri xalq təbibi Məşədi Əkbər idi. Bu məclisin üzvləri xəstələri müalicə etmək üçün xüsusi müalicəxanalar da açmışdılar. İlk müalicəxana Yuxarı Gövhər ağa məscidində açılmışdı. Burada yerli əhali ilə yanaşı, başqa yerlərdən gələn tacirlər və sənətkarlar da müalicə olunurdu. Bu müalicəxananın bütün məsrəflərini Gövhər ağa ödəyirdi.

Məclisin üzvləri xalq arasında gigiyena və təmizlik, səhiyyə barəsində söhbətlər aparır, eyni zamanda





***Təbii dərmanlar məkanı – Əttar dükanı***

xəstələrin müalicəsi üçün xüsusi təşkil olunan müalicəxanalarda təbiblik fəaliyyətlərini davam etdirirdilər. Təbiblər tərəfindən hazırlanan bu dərmanlar isə Şuşada mövcud olan Əttar dükanlarında satılırdı.

Burada həmçinin digər qədim Şərq təbabətinin dərmanları, müxtəlif otlar və minerallar, ətriyyat məhsulları da satılırdı. "Nüsxəbəndlər məclisi"nin üzvü olan təbiblərdən qalma xeyli reseptlər var. Onlardan bir neçə xəstəliyin müalicəsi üçün hazırlanan dərmanlar və onların istifadə qaydalarına aid materialların bəzilərini mənbədə yazıldığı kimi diqqətinizə çatdırmağı lazım bilirik:

**1. Qanaxmanın dərmanı.** İnsanın bədənindən şiddətli qan gedən zaman qanaxmanın qarşısını bu qayda ilə dayandırmaq olar: gicitkəni kökündən çıxardıb, qurudandan sonra qaynadıb, çayını xəstəyə vermək lazımdır. Xəstə onu içən kimi qan kəsəcək, yaxud xəstə böyürtkənin yarpağını qaynadıb içərsə, qan dayanar, axmaz.

**2. Şiddətli qusmanın müalicəsi.** Şəkəri suyun içərisinə töküb, odun üstündə qaynadıb mət halına gətirmək, sonra lumunun qabığını soyub, əli təmiz yuyandan sonra onu qab içərisində əl ilə xışlayıb mayesini çıxartmaq, sonra lumunun suyunu süzgəcdən süzüb, onun suyunu şəkər mətinin içərisinə tökmək. Lumu suyunu ora tökdükdə o maye halına gələcək. Onun suyundan qaşıq-qaşıq xəstəyə verən kimi qusma kəsəcək.

**3. İshal xəstəliyi ilə mübarizə yolları.** Bağayarpağı deyilən bir bitki var. Bu bitkinin tuta oxşayan düyümü var. Onu yığıb qaynatdıqdan sonra çayı xəstəyə verilərsə, qanişləmə kəsər və s.

**4. İshal xəstəliyinə dərman.** İshal xəstəliyi meyvə çıxan zaman əksəriyyətlə uşaqlarda çox olur. 7-8 yaşlı bir uşaq bu xəstəliyə tutularaq gündə 15-20 dəfə bayıra gedir. Hər nə qida yeyirdisə mədə-bağırsaq qidanı saxlamırdı. Uşaq o qədər üzgünləşmişdi ki, zəiflikdən ayaq üstə duranda yıxılırdı. Həkimlər tərəfindən məsləhət görülən dərmanlar əsla xeyri olmurdu. Uşaq ölümcül bir halda idi. Bunu eşidən bir nəfər qadın uşağı belə halda görüb, valideynlərinə dedi:

– Gedin bir neçə kiloqram bal və bəhməz alıb gətirin, mən onu müalicə edəcəyəm.

Qadın gündə bir neçə dəfə baldan və bəhməzdən uşağa yedirtdi. Bu qayda üzrə bir neçə günün içərisində uşağın ishalının qarşısı alındı.

**5. Ürəyi zəiflərə müalicə.** "Bədmüşk" (piş-pişi) deyilən bir ətirli bitki var. Onu ağacdan dərib bir qazana doldurun və bir azca da içərisinə su töküb, odun üstünə qoyun. Qazanın ortasına bir qab qoyub, ağzını möhkəm örtdükdən sonra onu qaynadın. Qaynamaq nəticəsində buğ qalxıb təbəxxür edəcək, qazanın ağzına qoyulmuş qaba yığılıb, oradan qazanın ortasındakı qaba töküləcək. Qab dolduqca çıxarıb başqa bir qaba tökün. Çəkilmiş mayeni şüşə butulkalara töküb, ağ-

zını möhkəm örtün və günün qarşısına düzün. Günəş şüası onu yetirəcək. Hər gün səhərlər xəstə acqarına bədmüşk arağından yarım stəkan töküb, bir qədər təmiz su qataraq içinə qənd salıb içməlidir. Bu üsul ürəyi zəif olanlara çox kömək edər. Bundan başqa, "göz zəbanı" deyilən bitkinin çiçəklərini toplayıb qaynadaraq çayını içmək də ürəyi zəif olanlara çox xeyirlidir.

**6. Böyrək xəstəliyinin müalicəsi.** Böyrəyində daş əmələ gələn adamlara məşhur İstisuya gedib bir aya kimi orada qalmaq lazımdır. Xəstə hər gün isti sudan müntəzəm olaraq içməlidir. Həmin su böyrəkdə olan daşları xırdalayır. Bundan əlavə, bu xəstəliyə tutulmuş adamlar hər gün bir qədər meşə armudu yeməlidir. Yuxarıda göstərilənləri yerinə yetirən xəstələr az vaxtda sağalıb bu ağır xəstəlikdən qurtara bilərlər.

**7. Yanığın elarası dərmanı.** İnsanın bədənində yanıq olduqda, onu ən sadə bir üsul ilə müalicə edirlər: Yerdə olan qabıqlı şeytanı (ilbizi) tutub öldürmək, qabığını çıxarıb onu təmiz yuyandan sonra rütubətini qurutmaq və qabığı narın döymək lazımdır. Döyülmüş qabığı tənzifdən keçirdikdən sonra yanmış yerə, yəni yaranın üstünə narın un kimi səpin. Gündə bir neçə dəfə yanan yerə həmin un tozu səpilməklə yanığı çox tez sağaltmaq mümkündür.

Göründüyü kimi, el təbibləri tərəfindən göstərilən dağ-çəmən bitkilərindən (dərman bitkilərindən) hazırlanan dərman reseptləri indi də müasir təbabət el-

mində bu cür təbii yolla hazırlanan dərmanlardan istifadə etməyə çalışırlar. Müasir dövrümüzdə insanlar artıq GMO məhsullarının törətdiyi fəsadları görür və təbii üsullarla yaşam tərzinin üstünlüklərin dərk edir.

Təbiidir ki, Şuşada xalq təbabətinin geniş yayılması buranın zəngin florası (bitki aləmi) ilə bağlı idi. Şuşanın bu qədər zəngin florası hesabına yaranan dərman bitkiləri daim qorunurdu. Lakin torpaqlarımız işğal altında olan müddətdə Şuşanın, ümumən Qarabağın flora-faunası da düşmən tapdağı altında əzilib. Hər bir savadlı insan bilir ki, bitkilər də canlıdır. Onlar da nəfəs alır, qidalanır, ətrafda baş verənlərə biganə qalmırlar. Dəhşətli hadisələr onların məhvinə səbəb olur. Bəli, xalq təbabətində, boyaqçılıq sahəsində işlədilən dərman və boyaq bitkiləri mənfur düşmənlərimiz tərəfindən məhvə məruz qaldı, nəsli kəsildi. İndi onları təyin etmək, heç olmasa, qalanlarının qayğıları ilə yaşamaq məhz botanika alimlərinin, ziyalıların, yerli əhalinin bilavasitə borcudur. Od vurulan meşələr, atılan toplar, yandırılan torpaqlar da soyqırıma uğradı. Bir sözlə, Qarabağda torpaqlarla yanaşı, flora-faunası da işğal altında qaldı. Mənfur düşmənlərimiz tərəfindən vəhşicəsinə xeyli meşə ağacları qırılmış, talan edilmişdir. Artıq heç kimə sirr deyil ki, ermənilər nadir qiymətli ağac növlərini doğrayaraq mebel sahəsində xammal kimi istifadə ediblər, bir hissəsini isə xarici ölkələrə satıblar. Təbii ki,

azad olunan torpaqlarımızda talan edilən meşə sahələri yeni meşə zolaqları ilə canlandırılıb təbiəti bəzəyəcək.

Qarabağda-Şuşada, Kəlbəcər və Laçında dünyanın heç bir yerində mövcud olmayan, qırmızı kitaba düşən zəngin bitkilər aləmi mövcud olub. İndi onların taleyi bizi daha çox düşündürür. Bu da məlumdur ki, hələ torpaqların zəbt olunmasından əvvəl Qarabağın və xüsusilə də, Şuşanın florasına aid bəzi bitkilər Bakı botanika bağında təcrübə üçün yetişdirmişlər. Əlbəttə, bu, çox sevindirici haldır. Allahın bu gözəl məkana bəxş etdiyi varidatın bir hissəsidir. 30 il ərzində bu bölgənin flora-faunası haqqında tam məlumat yox idi. Artıq alimlər işləyir və yəqin ki, bərpa dövrü, onun bərpası lazımi səviyyədə həyata keçiriləcək. Ümidvarıq ki, nadir və nəsli kəsilməkdə olan bitki növlərini qorumaq, mühafizə etmək üçün Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyi lazımi tədbirlər həyata keçirəcəkdir.

Uzun illər ərzində Şuşanın təbiətinə nə qədər ziyan vursalar da o, yenə də əsrarəngiz gözəlliyini saxlayıb. İlahi tərəfindən təbiətə bəxş edilən bu əsrarəngiz gözəllik, həmişəyaşıl meşələr, “Cıdır düzü”, qala divarı sanki dil açıb Şuşanın – bu qədim diyarın tarixindən əzmlə danışır.

# SƏNƏTKARLIĞIN İNKİŞAFINA TƏSİR EDƏN AMİLLƏR

Sənətkarlıq xüsusi bədii yaradıcılıqdır. Bu, elə bir fitri istedaddır ki, onu Allah hər kəsə bəxş etmir. Sənətkarlar yaratdıqları hər hansı əşya, əl işi və əsər üzərində işlədikdə öz düşüncələrini, qəlbini, ruhunu da ora qataraq iç dünyasından keçirir, yaratdığı hər bir işi ürəyindəki sevgiylə işıqlandırır. Şuşada yaşayan sənətkarlarda bu cəhət özünü daha çox büruzə verirdi. Onlar xüsusi gözəliklərlə əhatə olunmuş təbiətdən, saf havadan, sudan enerji toplayır, buranın təmiz qəlbli yaradıcı insanlarından ilham alaraq daha da püxtələşirdilər. Məhz bu səbəbdən də Şuşada hər hansı bir nəsli araşdırsanız, mütləq onların arasında sənətkarlar olduğunu görəcəksiniz. Maraqlı burasıdır ki, həmin insanlar hansı sənətlə məşğul olmasından asılı olmayaraq həmin sahədə kamil bir ustaya çevrilirdilər.

Şuşada sənətkarlığın onlarla növü mövcud idi. Toxuculuq, dəmirçilik, dulusçuluq, başmaqçılıq, atçılıq, papaqçılıq, yunçuluq, xəttatlıq, rəngkarlıq, nəqqaşlıq, memarlıq, rəssamlıq, sümükişləmə, dəmirişləmə, daşişləmə, nüsxəbənd və digər sənətlər burada inkişaf edirdi. Bu sənətlərin inkişaf yolunda həmin sahələrdə məşhur sənətkarlar yetişirdi. Sənətkarların istər bədii cəhətdən, istərsə də onların yaradıcı təfəkkürlərinin inkişafına və



*Qarabağ xanlığının qurucusu Pənahəli xan*



*İbrahimxəlil xan*



*Mehdiqulu xan*

**Qarabağ xanlığının davamçıları**

sənətkarlığın daha da geniş yayılmasına bir neçə amilin xüsusi təsiri olub:

1. Pənahəli xan və onun varisləri rəiyyətə, sənətə və sənətkarlara düzgün, ədalətli münasibət göstərirdi. Qarabağ xanları istər Şuşa sakini olan, istərsə də hər hansı başqa bölgədən gələn sənətkarlara xüsusi diqqət göstərirdilər. Qarabağ xanları başqa yerlərdə tanınmış sənətkarların Şuşaya gəlməsi üçün çalışır, gələnlərə hər cür şərait yaradırdılar. Onların yaşayış məskənlərinin rahatlığı, gördükləri işlərin düzgün dəyərləndirilməsi və mükafatlandırılması daim diqqət mərkəzində olurdu.

Qarabağ xanlarının sənətkarlara olan münasibəti və qayğısı digər yaxın bölgələrdən daha çox tanınan, şöhrətli sənətkarların və onlarla əməkdaşlıq edənlərin də Şuşaya köçüb, burada məskunlaşmasına səbəb olurdu. Pənahəli xanın sənətkarlara bu münasibəti onun varisləri tərəfindən də davam etdirilirdi. Şuşaya Təbrizdən, Ərdəbildən, Şəkidən, Şamaxıddan, Naxçıvandan, Gəncədən də sənətkarlar gəlirdilər.

İbrahimxəlil xanın dövründə Təbrizdən Şuşaya gəlmiş memar Kərbəlayı Səfixan Qarabaği Təbrizin yaxınlığındakı Əhər şəhərindən idi. O, Şərqdə məşhur olan Təbriz memarlıq məktəbində oxumuş və burada memarlığın sirlərini dərindən mənimsəmişdir. İlk fəaliyyətinə memarlıq ənənələri ilə fərqlənən, zəngin sənətkarlıq nümunələri ilə bütün dövrlərdə məşhur olan Təbriz şəhərində başlamış və burada mahir bir sənətkar kimi yetişmişdi. Qarabağ xanlarının sənətə və sənətkarlara

diqqəti haqqında məlumatlı olan Səfixan XIX əsrin ortalarında Şuşaya gəlir. Bir müddət işlədikdən sonra burada sənətkarlar üçün yaradılan şərait, göstərilən diqqət və qayğı, həmçinin Şuşanın təmiz suyu, saf havası sənətkarlara ilham verən əsrarəngiz mənzərəsi memara böyük zövq verdi və burada həvəslə yaşamağa əminlik yaratdı. Bütün bunlar Səfixana Təbrizdə onunla birlikdə işləyən inşaatçı dəstəsini müxtəlif növ sənətkarları da Şuşaya gətirməyə həvəsləndirdi. Beləliklə, o, sənət yoldaşları ilə birlikdə 1860-cı ildən başlayaraq Şuşada məskunlaşdılar və bütün həyatlarını burada yaşayıb -yaratmaqdan zövq aldılar.

Onunla Şuşaya gələn sənətkarlar arasında incə naxışları ilə qəlbinin duyğularını hiss etdirən dövrünün tanınmış nəqqaşı Məhəmməd Sükuhi Təbrizi də var idi. Səfixan sənətkar dostları ilə birlikdə yaratdıqları memarlıq abidələrində özünün və sənətkar dostlarının inisiallarını əks etdirirdilər. Qarabağın vurğunu Səfixan göründüyü kimi, özünə Qarabaği təxəllüsünü götürdü. Qarabağda memarlığın və memarların inkişafında Səfixan Qarabağinin əməyi danılmazdır. Səfixan bir çox Şuşa memarları ilə birgə fəaliyyət göstərirdi. Bunlardan Qasım Kərbəlayi Əlixan oğlu, Həsənəli Hacı oğlu, Ələkbər Kərbəlayı Həsən oğlu və digər Şuşa memarlarını göstərmək olar.

Kərbəlayı Səfixanın Qarabağda ilk memarlıq abidəsi 1868-ci ildə, Bərdənin qədim məzarlığında Şeyx İbra-

# XVIII-XIX əsr memarlıq nümunələri



***Şeyx İbrahim sərdabəsi üzərində ucaldılmış İmamzadə məscidi***



***Aşağı Gövhər ağa məscidi***

him sərdabəsi üzərində xüsusi yaradıcılıqla ucaldılmış İmamzadə məscidinin binasıdır.

Bu bina o dövrün məscid memarlıq üslublarından fərqli bir abidə idi. İmamzadə məscid binasında fərqli inşa edilən dörd minarə bu məscidə xüsusi gözəllik verirdi. Səfixan və onun həmdaşları Şuşada inşa edilən bir çox evlərin və məscidlərin inşasında memarlığın maraqlı üslublarından istifadə edirdilər. Səfixan Qarabağinin rəhbərliyi ilə və Gövhər ağanın vəsaiti hesabına inşa edilən Aşağı və Yuxarı məscidlər də memarlıq üslubuna görə fərqli idi. Bu günə qədər tarixi özündə yaşadan həmin memarlıq abidələri hər zaman insanların ruhunu oxşayır. İndi də ətraf bölgələrdən bura gəlib ibadət edənlər, nəzir-niyaz və ianələr verənlər az deyil. Sovet dövrünün sərt qaydaları inanclı əhalini buradan çəkindirə bilmədi. Kərbəlayi Səfixan Qarabağın digər bölgələrində də yaratdığı memarlıq abidələri ilə şöhrət qazanmışdı. Buna misal Qarabulaqda Ələkbər məscidini, Ağdam məscidini, Malıbəyli kəndindəki məscidi, Azad Qaraqoyunlu kənd məscidini və digərlərini göstərmək olar. Sonralar Səfixan və onunla birgə fəaliyyət göstərən memarlar və sənətkarlar yeni-yeni layihələr üzərində işləyiblər.

2. Sənətkarlığın inkişafına təsir edən digər səbəblər isə sağlamlığın rəhni olan bu şəhərin gözəl təbiəti, havası, suyu, yararlı olan bioiqlimidir. Bioiqlim mühiti hər bir insanda xoş əhval- ruhiyyə oyadır, sevinc, gümrahlıq yaradır, əmək məhsuldarlığını yüksəldir. Gözəl, əsra-



***Ecazkar təbiətdən ruhlanan rəssam***

rəngiz sənət əsərləri yaratmaq üçün sənətkarlarda xüsusi qabiliyyət – zəngin təxəyyül, təfəkkür, yaddaş olmalıdır. Məhz təxəyyülün süzgəcindən keçən sənət əsərləri tarixdə özünə layiqli yer tutur, nəsildən-nəsilə ötürülür. Bütün bunlar da bioiqlim şəraiti ilə bağlıdır. Şuşanın ecazkar mənzərəsi, təbiəti sənətkarların ilham qaynağı olduğu kimi, torpağının, suyunun, havasının tərkibi də sənət əsərlərinin yaranmasında müstəsna əhəmiyyətə malikdir. Bu torpaqda yetişən bitkilər, coşub-çağlayan bulaqların tərkibindəki mineral maddələr sənətkarların yetişməsinə əhəmiyyətli təsir göstərir. Bu da sənətkarlığın müxtəlif növ nümunələrinin inkişafına səbəb olurdu. Bütün bu deyilənlərdən belə nəticəyə gəlmək olar ki, Şuşanın minerallarla zəngin bulaq sularının, ey-

ni zamanda flora-faunasının insanların sağlamlığında min bir dərdin dərmanı olduğu kimi onların təfəkkürünün inkişafında və yaradıcılığında da mühüm əhəmiyyət kəsb edirdi.

3. Problemlə əlaqədar digər bir səbəb də sənətkarlığın daha geniş və hərtərəfli inkişafına şərait yaradırdı. Şuşada mövcud olan yeraltı və yerüstü zəngin təbii sərvətlər sənətkarlığın əsl xammal mənbəyi idi. Məhz bu təbii xammal hesabına xalq tətbiqi sənəti Şuşada günügündən inkişaf edirdi. Bu sənət nümunələrinin hər birinin özünəməxsus xüsusiyyətləri var idi və yerli əhalinin milli mədəniyyət tarixində xüsusi yer tuturdu. Bununla bağlı Şuşada mövcud olan bir çox sənətkarlıq nümunələri ilə tanış olmaq kifayətdir.

Toxuculuq sənətinin əsas xammal mənbəyi təbii və kimyəvi liflərdir. Təbii liflərə yun, kətan, pambıq və ipək aiddir. Kimyəvi lif kimi isə süni və sintetik liflərdən istifadə olunur. Məlumdur ki, XVII-XVIII əsrlərdə yalnız təbii liflərdən istifadə olunurdu, çünki həmin dövrlərdə kimyəvi liflərin alınması ilə bağlı geniş ixtiralar, vasitələr yox idi, həm də təbii liflərə daha çox üstünlük verilirdi. Belə ki, təbii liflərin də əldə edilməsi üçün kənd təsərrüfatı sahəsinin inkişafı əsas şərtlərdən sayılırdı.

Toxuculuq sənəti xalçaçılıq və şərbaflıq (parça toxunması) sənətini özündə birləşdirir. Bu sənətlərin də digər bütün sənətlər kimi inkişafı həmişə xüsusi mühit və xammal tələb edirdi. Şuşada toxuculuq sənəti üçün

də belə mühit və xammal mövcud idi. Əlverişli iqlim şəraiti hesabına burada mövcud olan yaşıl otlaqlar qoyunçuluğun inkişaf etməsinə zəmin yaradırdı. Qoyunçuluğun inkişafı isə yun istehsalının əsas mənbəyidir. Təbii ki, bu da xammal olaraq yundan iplərin əyrilməsinə və onlardan toxuculuq sahəsində istifadə olunmasına şərait yaradırdı.

Toxuculuğun digər bir növü olan şərbaflıq da öz inkişafı ilə xüsusi bir növ kimi diqqəti cəlb edirdi. Şərbaflıqda yun, ipək, pambıq və kətan liflərindən hazırlanan müxtəlif növ parçalar toxunurdu. İpək, pambıq və kətan liflərinin xammalları isə Qarabağın aran zonalarında yetişdirilirdi. Məlumdur ki, ipək lifləri baramadan alınırdı. Barama qurdunun da əsas qidası xüsusi növ tut ağaclarının yarpaqlarıdır. Bunlar isə həm Şuşada, həm də Şuşa ətrafı bölgələrdə ən çox yetişən ağaclardandır. Baramadan alınan ipək liflərinin toxuculuq sahəsində xüsusi yeri var idi. Onlardan Şuşada özünəməxsus toxuculuq sahələrində istifadə olunurdu. Bu sənətlə məşğul olan ustalar bədii fikir və təxəyyüllərinin sayəsində toxuduqları parçalar üzərində rəngarəng naxışlarla o qədər incəliklə, zövqlə əks etdirirdilər ki, bu da onlara olan marağı artırırdı. Bu liflərdən alınan ipək parçaların soyuq havada istilik, isti havada sərinlik yaratması və gözəl görüntüsü onlara olan tələbatı daha da artırırdı. Demək olar ki, ipək parçalar ayrı-ayrı ölkələrdən gələn insanlar tərəfindən ən çox alınan parçalar idi. Ticarət yolunun Qarabağdan keçməsi, ticarət əlaqələrinin genişlənməsi

## Muzeyləri bəzəyən xalçalar



*Bəhmənli xalçası*



*Bərpadan sonra*

ipəkçiliyin inkişafını da genişləndirirdi. Bütün bunlar ipəyin qiymətinin qızılla dəyərləndirilməsinə səbəb olmuşdu. Şuşada ipək parçaların hazırlanması ilə məşğul olan ustaların sayı ikiyüz nəfər idi.

XVIII əsrdə burada parça istehsalı sahəsində ixtisaslaşma üçün xeyli sənətkarlıq ocaqları olmuşdur. Həmin dövrlərdə ipək saplardan ipək, bafta, alaca, atlas, kətandan darayı, həm yun, həm də ipəkdən alaca, cecim, tətinik, xara, zərbaft kimi parça növləri toxunurdu. Toxuculuq ən çox Şuşanın Ləmbəran kəndində inkişaf etmişdi. 1894-cü ildə Şuşada beş parça toxuyan sex var idi ki, bunlar da ayrı-ayrı adamlara mənsub idi. İpək saplardan

kalağayı istehsalı da xüsusi bir sənətkarlıq növü idi. Yüz illərdir ki, qadın geyiminin əsas tərkib hissəsi olub, onlara xüsusi rəng qatan kalağayı ən çox dəyər verilən milli baş örtüyüdür. Kalağayının üzərindəki bədiiliyi və yaraşığı ilə fərqlənən naxışlar kainatın və dünyanın quruluşunu təsvir edirdi. Maraqlı burasıdır ki, rəssamlar və digər yaradıcı sənətkarlar, adətən, bədii naxışların çoxunu təbiətdən alır. Lakin kələğayı nəqqaşları təbiətdə mövcud olmayan, yaxud çox az təsadüf edilən bədii yaradıcılıq formalarından ibarət naxışları da kələğayıya vururdular. Kələğayıların üzərinə vurulan əsas naxışlardan bir qismi çox növlü butadır – ***"ağlayan buta, gəlin buta, ana buta, rəqs edən buta"*** və s. Kələğayılar üzərində həkk olunan müxtəlif naxış elementlərinin mənası bir sıra şairlərin şeir misralarında açıqlanır. Bunlardan biri də publisist yazıçı, şair, folklorşunas alim Fəridə Hicran Vəliyevanın "Kalağayınn sirri" şeiridir. Bu şeirdə kələğayı naxışlarının açıqlaması daha çox diqqəti cəlb edir:

***Şah butalı naxışın***
***Eşqin ilk badəsidir.***
***Salikin bu yoldakı***
***Uğur ifadəsidir.***

***

***O, noxudu nöqtələr***
***Məqamların əzmidir.***
***Burada həkk olunan***
***Haqq-həqiqət rəmzidir.***

***Dalğalı əyri xətlər***
***Seyri-süluk adlanır.***
***Salik bu yolu ötüb***
***Tanrısına tuşlanır.***

***

***İncə, zərif çiçəklər***
***Könül nişanəsidir.***
***Vəhdəti-vücud kimi***
***Sufi-fəlsəfəsidir.***

Toxuculuq sahəsində özünəməxsusluğu ilə fərqlənən xalçaçılıq Şuşada geniş vüsət tapmış və yerli xalqın milli mədəniyyət tarixində xüsusi yer tutmuşdu.

Şuşa xalçaçılıq sənətinin nümunələri demək olar ki, şəhərdə bazar iqtisadiyyatının əsasını təşkil edirdi. Artıq burada toxunan xalçalar dünya bazarlarında tanınır və günü-gündən ona olan tələbat da artırdı. Şuşa xalçalarından "Nəlbəkigül", "Zərməxmər", "Bağçada güllər" və digərləri daha çox diqqəti cəlb edirdi. Bu xalçalar onu toxuyanların ruh dünyasını, kimliyini, düşüncə tərzini, kodlaşmış mədəniyyətini nəzərə çatdırır. Milli mədəni irsimizin, məişətimizin ayrılmaz hissəsi olan Azərbaycan xalçaları arasında Şuşa xalçaları xüsusi yer tutur.

Şuşa xalça məktəbi Qarabağ xalçaçılıq sənətinin şah damarıdır. Bu xalçaçılıq tək öz xalqına deyil, eyni zamanda dünya mədəniyyətinə böyük töhfələr vermişdir.

Şuşa xalçalarının özəlliyi hündür, çox nazik və iri ölçülü olması idi. "Bəhmənli xalçası" buna ən yaxşı nümunədir. Şuşada toxunan xalçalar həm keyfiyyətinə, həm də bədii tərtibatına və təsvirinə görə XIX əsrdə Qarabağda 1-ci yeri tuturdu. "Xantirmə", "Xanlıq", "Malıbəyli" və digər xovlu xalçalarda tarixi keçmişimizi ifadə edən kodlu təsvirlər var. Şuşada müxtəlif adlarda palaz, kilim, fərməş, vərni və başqa adlarda xovsuz xalçalar da toxunurdu. Bu xalçalar dünyanın ən zəngin muzeylərindən sayılan Parisin "Luvr", Londonun "Viktoriya və Albert", Vaşinqtonun "Metropoliten", Vyana, Rumıniya, Berlin, İstanbul, Tehran, Qahirənin muzey kolleksiyalarında xüsusi yer tuturdu. Azərbaycan xalq sənətkarlığının bir çox dəyərli nümunələri kimi sərgilənən Qarabağ xalçaları arasında Şuşa xalçaları həmin muzeyləri bəzəyirdi.

1872-ci ildə Moskvada keçirilən sərgidə Şuşa xalçalarından Kərbəlayi Əhməd Dəmiroğlu, Cabbar Hacı Əhməd oğlu və Bayram Məşədi Qurban oğlu keyfiyyətli, gözəl çeşidli və mahiyyət dolğunluğu ilə seçilən xalçalar nümayiş etdirdiklərinə görə qızıl medalla təltif olunaraq mükafatlandırılıblar. 1906-cı ildə Şuşada dünyaya gələn Lətif Kərimov da məşhur xalçaçılardan biri idi. O, eyni zamanda xalça mərkəzləri olan Məşhəd, Təbriz, Ərdəbil şəhərlərini gəzərək xalçaçılığın bütün sirlərini öyrənmişdi. Onun sayəsində də Şuşada xalçalar üzərində toxunan naxışlar daha maraqlı və cazibədar olurdu.

Nəzərə alsaq ki, istər şərbaflıq, istərsə də xalçaçılıq sənətində bu sapların boyanması üçün rənglər lazımdır, onda dağ çəmənliklərini bəzəyən boyaq bitkilərindən (gülxətmi, kəklikotu, qov göbələyi, tut ağacının sarı yarpaqları, nazotu, zing, zəy, və s.) alınan boyalar əsas vasitələrdən sayıla bilər. Onlardan liflərin əyrilməsi və boyanması üçün zəruri sayılan ***həllaclıq*** və ***boyaqçılıq*** sənətlərinin inkişafında istifadə olunurdu. Həmin dövrdə Şuşada artıq səkkiz boyaqxana fəaliyyət göstərirdi. Boyaqçılar əlliyə qədər rəng və rəng çalarları ala bilirdilər. Bu təbii rənglər və onların çalarları ilə toxunan xalçalar xüsusi gözəlliyə malik idi. Belə xalçalar yuyularkən onların solmaq ehtimalı da az idi. Bu isə həmin xalçaların dəyərini artırırdı. Qeyd etmək lazımdır ki, boyaq maddələrindən yalnız yerli əhali bəhrələnmirdi, onun bir hissəsi xarici bazarlara çıxarılırdı. Boyaqçılıq sənəti ***nəqqaşlıq*** sənətinin meydana gəlməsinə, geniş yayılmasına və inkişafına şərait yaradırdı. Nəqqaşlar yalnız parçalar üzərində deyil, ağac, dəmir, saxsı, fil sümüyü və sədəfdən hazırlanan məmulatların üzərində də dekorativ naxışlar əks etdirirdilər. Eyni zamanda, memarlıq abidələri üzərində ona uyğun naxışlar həkk edirdilər. Bəzən belə abidələrdə nəqqaşlar ya öz və ya digər memarların kimliyini göstərən insiallar nəzərə çatdırılırdı. Dövrün nəqqaşlarından Usta Qənbər Qarabaği, Usta Səfər Qarabaği, Usta Şükür Qənbər oğlu yalnız Şuşada deyil, Şəki xanlar sarayının da bərpasında dekorativ naxışlardan istifadə edirdilər. Şuşada nəqqaşlar

arasında Qarabağda ad qazanmış yerli sakin Usta İmamqulu Məmmədəli oğlu və Usta Qənbər Qarabaği nəqqaşlıqla yanaşı, həm də memar idilər. Həmin ustaların rəngarəng miniatur əsərləri bədiilik baxımından çox maraqlı və fərqli sənət əsərləridir.

Şuşada nəqqaşlıqla yanaşı, ***rəssamlıq*** da təsviri incəsənətin əsas sahəsi kimi inkişaf edirdi. Rəssamlar adətən bədii yaradıcılıq üçün mövzunu həyatdan, təbiətdən alırdılar. İstər nəqqaşların, istərsə də rəssamların bədii-fəlsəfi yaradıcılığına Şuşanın göz oxşayan mənzərələri əhəmiyyətli dərəcədə təsir göstərirdi. Onların yaradıcılığında xüsusi yer tutan əsərlər dağların, meşələrin füsunkarlığını təsvir etməklə yanaşı, dövrünün həyat tərzini də əks etdirərək bu günümüzə qədər gəlib-çatmışdır. Rəssamlıqda süjet xarakterli əsərlərə də çox rast gəlinir. Müxtəlif dövrlərdə yaradılmış bu sənət əsərləri öz məzmunu, bədiiliyi ilə diqqəti cəlb edir. XIX əsrdə yaşamış musiqişünas, şair, astronom, kimyagər, riyaziyyatçı olan Mir Möhsün Nəvvab da Xan qızı Xurşudbanu Natəvan kimi həmin dövrün realist rəssamlarından idi. Lakin Nəvvab rəssamlıqla yanaşı, həm də nəqqaşlıq sahəsində fəaliyyət göstərib. Onun əsərlərində təbiət motivləri, quşlar, çiçəklər, miniatür ornamentlər çox cəlbedici və qeyri-adiliyi ilə fərqlənirdi. Xan qızının çəkdiyi rəsm əsərləri öz qəzəllərinin süjetində olan real aləmi əks etdirir və dekorativ-tətbiqi sənət nümunələri ilə diqqəti cəlb edirdi. Hal-hazırda Xan

qızının maraqlı rəsm əsərlərinin nümunələri Əlyazmalar İnstitutunda saxlanılır.

Təbii ki, qoyunçuluğun inkşafı yalnız yunun istehsalı deyil, həm də dəri-gön və dəriçilik sənətinin də meydana gəlməsinə səbəb olurdu. Şuşada xalçaçılıqla yanaşı, ***keçəçilik*** də inkişaf edirdi və bununla bağlı kifayət qədər keçə məmulatları istehsal olunurdu. Keçi qəzilindən (tükündən) möhkəm sicim, kəndir, ələk, xəlbir, kisə və digər əşyalar da hazırlanırdı. Bunlardan hər bir evdə istifadə olunurdu.

Şuşa meşələrində daha geniş yayılmış ağaclardan biri də iri gövdəli palıd ağaclarıdır. Bu ağaclar möhkəm oduncağa malik olduğundan tikinti üçün yararlı olub sənayenin inkişafında da çox əhəmiyyətli idi. Palıd ağaclarının qabığının tərkibində aşılayıcı maddə olduğundan ondan gön-dəri aşılanmasında istifadə edilirdi. Bu da gön-dəri istehsalı sahəsinin yaranmasına və bu sahədə sənətkarların yetişməsinə səbəb olurdu. Palıd ağacının oduncağı kənd təsərrüfatı alətlərinin hazırlanmasında, həmçinin bu dəyərli ağacların qozasından qəhvə hazırlanmasında da istifadə olunurdu. Buradan da görünür ki, sənətkarlıq təbiətlə vəhdətdə inkişaf edir. Yalnız palıd ağacları deyil, Şuşada və Qarabağın digər bölgələrindəki meşələrdə bitən qoz və tut ağaclarından da musiqi alətlərinin hazırlanmasında istifadə olunurdu ki, bu da Şuşada saz, ud, tar, kamança, nağara və digər alətlərin hazırlanmasına, musiqi alətləri üzrə sənətkarlığın inkişafına zəmin yaradırdı. Bunlardan əlavə ağcaqayın, və-

ləs, çinar, qoz, qaraçöhrə, sərv, cökə və söyüd ağacları da mebellərin hazırlanmasında, dəmirağac və gərməşov ağaclarından isə gəmiçilik sahəsində istifadə olunurdu. Meşə qaynar həyat mənbəyi, təbiətin "yaşıl ciyəri" heyvanların isti sığınacağı, quşların doğma məkanı, insanların sevimli istirahət yeri, qələm və fırça ustalarının ilham mənbəyidir. Buna görə də ərazisinin 20 faizə qədəri meşə zolaqları ilə örtülən Şuşanın flora və faunası olduqca zəngindir. Ana təbiət bu torpaqdan heç nəyini əsirgəməyib, onun altı tükənməz xəzinə olduğu kimi üstü də canlı və zəngin təbiət muzeyidir.

Şuşa dağlarının, qayalarının təbii sərvəti olan daşlar ən gözəl xammaldır. Bu daşlar ***memarlıq, daşyonma, daşişləmə*** sənətlərinin yaranmasına və inkişafına səbəb olub. Belə daşlar hesabına yaradılan sənət əsərləri xalqın tarixini, milli-mənəvi dəyərlərini özündə əks etdirir. Bununla bağlı Şuşada bir çox tarixi abidələr, evlər, binalar var.

Şuşa əsrarəngiz təbiəti, təmiz havası, saf suyu, bərəkətli torpağı ilə yanaşı, həm də memarlıq abidələri ilə zəngindir. Belə abidələr arasında Pənahəli xanın dövründə inşa edilən müdafiə qalaları, karvansaralar, sonrakı dövrlərə aid Gövhər ağa məscidləri, Heydər türbəsi, Natəvanın evi, Mehmandarovların yaşayış kompleksi və bu kimi bir çox evlər dəyərli memarlıq abidələridir. Şuşa qalası o dövrdə düşmənlərin bütün hücumlarına qarşı davamlı olması ilə alınmaz, möhtəşəm müdafiə qalası kimi tanınırdı. XX əsrdə də Şuşa şəhərində tarixi, mə-

## Zəhmətin bəhrəsi əməklə qazanılır







*Şuşa sənətkarları*

dəni abidələr inşa edilib. Bu abidələrdən Real məktəbi, M.P.Vaqifin türbəsi, Mədəniyyət evi, Tarix-Diyarşünaslıq Muzeyi və digərlərini göstərmək olar. Burada memarlıq iki istiqamətdə inkişaf edirdi: Memarlığın plan quruluşunda yaşayış məskənləri və Avropa memarlığı ənənələri də müəyyən yer tuturdu. Lakin bu abidələrdə Avropa memarlığından çox yerli memarlıq ənənə və prinsiplərinə uyğun üslublar üstünlük təşkil edirdi. Bunlar da Şuşada memarlıq məktəbi yaranmasına zəmin yaradırdı. Bu məktəbin ən görkəmli nümayəndəsi isə Kərbəlayi Səfixan Qarabağidir.

Daşişləmə prosesində daşdan insan və heyvan fiqurları düzəldilir, yaxud daşların üzərində naxışlar işlənirdi. Daşlar yonma, oyma, cızma üsulları ilə işlənir və onların üzərinə naxışlar vurulurdu ki, bu naxışların vasitəsilə əsərin hansı dövrə aid olduğunu asanlıqla müəyyən etmək olurdu. Şuşanın daşişləmə sənətkarları öz üslublarına və yaratdıqları daş əsərlərinə görə seçilirdilər. Daş əsərlərindən olan məzar daşları üzərində dünyasını dəyişən insanın həyat yolunu müəyyən səpkidə əks etdirirdilər. Məlumdur ki, qədim dövrlərdən başlayaraq qoçun əti, yunu, dərisi, xüsusi əhəmiyyət kəsb etdiyinə görə geniş istifadə olunurdu. Buna görə də çox yerlərdə qoçun daşdan fiqurlarının düzəldilməsi böyük maraq doğururdu. Şuşada və Şuşaətrafı kəndlərdə belə qoç fiqurlara tez-tez rast gəlinirdi. At fiqurlarına da daşişləmədə xüsusi maraq göstərilirdi. At insanları duyan, qoruyan, onlara etibarla xidmət edən əsl dost idi. Buna gö-

rə də at bizim xalq üçün mənəvi dəyər hesab olunur. Azərbaycana məxsus milli at cinsləri arasında Qarabağ atları öz əlamətlərinə və keyfiyyətlərinə görə fərqlənirdi. Şuşanın təmiz havası, suyu, təbiəti bu at cinslərinə də öz təsirini göstərmişdir. Onlar mükəmməl, sürətli, oynaq, təlimə həssas, dağ minik atlarıdır. Şuşanın atları qeyri-adi gözəlliyə malik idi. İncə dərisi, nazik tükləri olan bu atlar qızılı və gümüşü parıltıya malik, sarı rəngli olmaları ilə seçilən kəhər atlardır. Atların bu keyfiyyətləri daş fiqurların üzərində xüsusi cizgilərlə əks etdirilirdi. Dünya üzrə keçirilən bir çox yarışlarda Qarabağ atları həmişə birincilik qazanmışdı. 1960-cı ilin iyun ayında Moskvada Avropa üzrə keçirilən at yarışında Qarabağın "Sumqayıt" adlı atı birinci yer tutmuşdur.

1956-cı ildə Ağdam Qarabağ Atçılıq Zavodunun direktoru Bəhram Əkbərov tərəfindən İngiltərə kraliçası II Yelizavetaya "Zaman" adlı at bağışlanılmışdı. Bununla da Qarabağ atlarının Avropaya gedişi başlandı. O atı, Avropaya aparan əməkdar məşqçi (joker) Əli Tağıyev olmuşdur. Kraliça onun vasitəsilə Bəhram Əkbərova təqdim etmək üçün qızıl suyu ilə yazılmış təşəkkürnamə göndərmişdi. Həmin ildə Azərbaycanın Xalq şairi Bəxtiyar Vahabzadə "Zaman" atına ballada yazmışdır. Lakin bu at da vətənini sevən, torpağına bağlı olan insan kimi həsrətə dözməmiş, qərib məmləkətdə, Britaniya torpağında az bir müddətdən sonra ölmüşdür.

Daşlardan xatirə bulaqlarının, kəhrizlərin tikilməsində də istifadə olunurdu. Təbii ki, bunları həyata keçir-




*Qarabağ atları*

mək üçün öncə daşyonma işləri aparılırdı. Bu işlə, adətən, bənnalar məşğul olurdu. Onlar müxtəlif formalı bəzək, hörgü daşı, səki, sütun və sair daşları müxtəlif forma və ölçülərdə yonub hazırlayırdılar. Sonra isə daşişləmə ustaları onların üzərində naxışlar işləyirdilər.

Qarabağın zəngin filiz yataqları hesabına Şuşada metalişləmə sənəti meydana gəldi. Metalişləmə sənətinin əsasını dəmirçilik, misgərlik, zərgərlik sahələri təşkil edir. Bu sahə ilə məşğul olan sənətkarlar da sürətlə inkişaf edirdi. Buradakı filiz yataqlarından əldə edilən yüksəkkeyfiyyətli dəmirdən hazırlanan məmulatlar daha möhkəm və davamlı olmaları ilə fərqlənirdi. Dəmirçilik sənəti hesabına müxtəlif silah növləri – qılınc, xəncər, qəmə, nizə, oxatan, tüfəng və məişət əşyaları-balta, bıçaq, dəhrə, dolça, vedrə və s. məmulatlar hazırlanırdı. Bu məmulatların üzərində nəqqaşların, rəssamların vurduğu naxışlar onların dəyərinin artmasına səbəb

olurdu. Buradakı naxışlar həmin dövrün yaşam və geyim tərzini, bəzi əşyaların formasını əks etdirirdi. Zərgərlik məmulatları isə daha incə zərif naxışları ilə çox cəlbedici idi.

Şuşada meşə ağacları da sənətkarlığın inkişafında xüsusi rol oynayırdı. Möhkəm oduncağa malik ağaclardan – palıd, vələs, şabalıd və s. sənayenin müxtəlif sahələrində, o cümlədən, tikinti sahəsində geniş istifadə edilirdi. Yüz illik palıd ağacları çoxluq təşkil edən meşələr və vələs meşələrindəki ağaclar hündürlüyü və yoğun gövdəli olması ilə diqqət çəkirdi. Onlardan hər cür ağac məmulatlarının hazırlanmasında istifadə olunurdu. Palıd ağacının qabığının tərkibində çoxlu aşı maddəsi olduğuna görə gön-dəri sənayesində və kənd təsərrüfatı alətlərinin hazırlanmasında qoz və tut ağacları musiqi alətlərinin istehsalı üçün əsas xammal sayılırdı.

Şuşada çoxlu sənətkarlıq növləri mövcuddur ki, yuxarıda bəziləri haqqında qısa məlumat verildi. Onların hər hansı birini araşdırsaq, yenə də ümumi bir fikrə gələrik: ***Hər bir sənətin yaradıcılıq yolunda neçə -neçə sənətlər bir-biri ilə əlaqəli olaraq yaranır və bərabər inkişaf edirdi.***

4. Bütün deyilənlərlə yanaşı, sənətkarlığın inkişafına təsir edən amillərdən biri də Qarabağın yerləşdiyi coğrafi mövqe idi. XVIII-XIX əsrlərdə beynəlxalq əhəmiyyətə malik ticarət yollarının Qarabağdan keçməsi də burada geniş ticarət əlaqələrinin yaranmasına, mal mübadiləsinə sənətkarlığın inkişafına xüsusi təkan verirdi.



***Şuşa sənətkarlıq məmulatları***

Bu yollar Avropa və Asiyanı əlaqələndirən ticarət yolları üstündə yerləşdiyindən sənət və ticarət mübadiləsində mühüm rol oynayırdı. Burada istehsal olunan məhsullar xarici ölkələrə daşınırdı. Eyni zamanda xarici ölkələrdən bəzi xammalların gətirilməsi və müxtəlif növ sənətkarlıq məmulatlarının mübadiləsi üçün şərait yaranırdı. Bu yolların hesabına Şuşada sənətkarların istehsal etdikləri musiqi alətləri orta Asiya ölkələrinə, Hindistana və Yaxın Şərq ölkələrinə ixrac olunurdu. Şuşada və Qarabağın digər bölgələrində toxunan xalçalar bir çox xarici ölkələrə daşınırdı.

Hələ 1830-cu illərin başlanğıcından Şuşa bir çox Şərq və Qərb ölkələri və şəhərləri ilə, o cümlədən, Rusiya, Türkiyə, İraq, Hindistan, Almaniya, London, Mar-

sel, Mançesterlə ticarət əlaqələri saxlayırdı. Eyni zamanda Azərbaycanın daxilində digər şəhərlərlə də ticarət əlaqələri genişlənirdi. Bu da istehsal olunan sənət əsərlərinin, avadanlıqlarının satışı üçün əlverişli şərait yaradırdı. Şuşa sənətkarları tərəfindən işlənən məmulatları, dekorativ tətbiqi sənət nümunələrini əldə etmək üçün bir çox ölkələrdən tacirlər gəlirdilər. Təbii ki, ümumi məhsulun satışı yeni və daha çox məhsulun istehsalına yol açır, sənətkarlıq sexlərinin çoxalmasına və sənətkarların inkişafına səbəb olurdu.

5. Əlverişli şəraitdə sənətkarlıq inkişaf etdikcə sənətkarlar arasında rəqabət də yaranırdı. Bu da onların daha mükəmməl, keyfiyyətli məhsul istehsal etmələrinə xüsusi təkan verirdi. Şuşa əhalisi arasında olan səmimi münasibət sağlam rəqabətin yaranmasında da əsas rol oynayırdı. Sağlam rəqabət, sağlam əməkdaşlıq münasibətlərinin yaranmasına kömək edir və maddi təminatı yüksəldirdi. Rəqabət sənətkarlığın inkişafında mühüm amillərdən biri idi. Milli dəyərlərin qorunub-saxlanılması, dünyəvi dəyərlərin sənətkarlığın bütün sahələrinə tətbiq edilməsi yeni sənətkarlıq üslubunun yaranmasına səbəb olurdu. Bu da sağlam rəqabətdə və sənətkarlığın inkişafında özünü göstərirdi. Bununla bağlı sənətkar yaradıcılığı əsasında iqtisadi əlaqələr də genişlənir və onları yeni bir sivil aləmə bağlayırdı.

Beləliklə, Azərbaycanın ən qədim bölgələrindən biri olan Qarabağ xanlığı və onun paytaxt şəhəri Şuşa böyük sənət mərkəzi kimi XVII əsrdən başlayaraq tarixdə şöh-



***Tacirlərin Şuşaya gəlişi***

rət qazanıb. Qarabağ-Şuşa sənətkarlarının adları artıq dünya miqyasında xüsusi yer alıb. Şuşada sənətkarlıq çox sürətlə inkişaf etdiyindən buradakı yaradıcı və istedadlı sənətkarlar Azərbaycanın heç bir yerində olmayıb. Yuxarıda göstərilən səbəblərdən aydın olur ki, Şuşada yaşayan sənətkarlar maddi cəhətdən də yüksək təminatlı idilər. Məhz buna görə də onlar Şuşanın zəngin, varlı insanlarından sayılır və şəhərin ən gözəl yerlərində, memarlıq üslubu ilə seçilən evlərdə yaşayırdılar.

Qarabağda, o cümlədən, Şuşada meydana gələn hər bir sənət sahəsi zaman keçdikcə inkişaf edir, təkmilləşir və dövrün tələblərinə uyğunlaşırdı. Getdikcə sənət ocaqları daha da inkişaf edərək sexlərə, fabriklərə çev-

rilirdi. İstehsalın miqdarı tələbata uyğun olaraq artırdı. Bu isə bir daha insanlarda ruh yüksəkliyi əmələ gətirir və onların məhsuldar işləmələrinə səbəb olurdu.



***Əvəzolnmaz musiqi alətimiz tar***

Şuşaya nahaq yerə Azərbaycanın tacı, şanı-şöhrəti deməyiblər. Bu şəhər yarandığı gündən Azərbaycanın qeyrət qalası kimi tanınıb, ölkəmizə dünyanın tanıdığı görkəmli şəxsiyyətlər bəxş edib. Onlar sənətkarlığı və mədəniyyəti ilə sivil dünyada özünəməxsus yer tutub. Buna görə də Prezident İlham Əliyev Şuşanın erməni işğalından azad olunduğunu xüsusi bir sevinc hissi ilə çatdırdı: ***"Şuşa hər bir azərbaycanlının əziz şəhəridir, çünki o bizim qürur yerimiz, şöhrət mənbəyimiz, şərəfli tariximizdir".***

## ƏDƏBİYYAT SİYAHISI


1. Azərbaycan etnoqrafiyası. I-II cild. Bakı, "Elm" nəşriyyaı, 1986.

2. Çingizoğlu, Ənvər., Qarabağlı, Rizvan. Qarabağda sənət və sənətkarlar.Bakı, "Elm və təhsil", 2011, 280 səh

3. Çingizoğlu, Ənvər., "Qarabağlılar", Bakı-"Şuşa", 2008.

4. Əfəndiyev R.. "Azərbaycan bədii sənətkarlığı dünya muzeylərində". Bakı, "İşıq" nəşriyyatı, 1980.

5. Əliyev, Həsən,. Ə56 "Həyəcan təbili". 2002. 175 s.

6. Əliyeva K.. "Təbriz xalça məktəbi" – XVI-XVII əsrlər. Bakı.1999.

7. Faiq Hacıyev. "Qarabağ atları tarixdə və incəsənətdə". Bakı, 2016.

8. Əliyev F.Y., Hüseynov R.İ., Qurbanov Q.B., Tağıyev R.M. "Bitkilər müalicə mənbəyidir". Gəncə, 2016.

9. Fəridə Hicran Vəliyeva. "Natəvanın şəcərəlri". "Elm və təhsil", Bakı, 2021.

10. Qarabağlı Rizvan. "Memar Kərbəlayı Səfixan Qarabaği". "Şuşa" nəşriyyatı. Bakı.1995.

11. Quliyev Vasif "Ötən günlərimi qaytaraydılar". "Şuşa" nəşriyyatı, Bakı.2001.

121. Quliyev Vasif "Mehmandarovlar". Bakı,"Şuşa" nəşriyyatı 2009.

13. Həlimə Mehdiyeva. "Xalq təbabətinin izi ilə". Azərbaycan Dövlət Nəşriyyatı, Bakı,1987.

14. Məmmədov. Bəylər "Xurşudbanu Natəvan".

15. Mustafayev S. "Xanlıqlar dövründə Azərbaycanda sənətkarlıq". Bakı, "Elm" nəşriyyatı, 2002.
16. Nəvvab M.M. "Təzkireyi-Nəvvab", Bakı, "Şuşa" nəşriyyatı, 1998.
17. Nuraliyeva Tahirə. "Əlyazmalar kolleksiyaları kataloqu". Bakı. 2006.
18. Səklikov İ.P.. "Xalq təbabətindən bir damla", Bakı – 2008.
19. Şuşinski Firidun "Şuşa". Azərbaycan Dövlət Nəşriyyatı, Bakı.1988.
20. Vəlili Məhəmmədhəsən "Azərbaycan-coğrafi-təbii, etnoqrafik və iqtisadi mülahizat", Bakı,1993.
21. Vəkilov Səməd. Azərbaycan folklor nümunələrinin hüquqi qorunması, Bakı-2020.
22. Xəlilov X.D. "Qarabağın elat dünyası", Azərbaycan Dövlət Nəşriyyatı, Bakı,1992,.119 səh
23. https://azerbaijan-news.az/az/posts/detail/susanin-gozelliyine-gozellik-getiren-flora-ve-faunasi-1647117853. Şuşanın gözəlliyinə gözəllik gətirən flora və faunası
24. http://www.anl.az/down/meqale/respublika /2021/mart/737157.htm. Dünyanı heyrətləndirən mədəniyyət ocağı – Şuşa
25. https://ebooks.az/view/IPO7fNai.pdf

## MÜNDƏRİCAT

Giriş . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . . .3
İqlimi sağlamlıq rəhni olan diyar . . . . . . . . . . . .6
Sənətkarlıq və sənətkarlığın inkişafına təsir edən amillər . . . . . . . . . . . . . . . . . . . . . . . .43
Ədəbiyyat siyahısı . . . . . . . . . . . . . . . . . . . . . . .69

Yığılmağa verilmişdir: 07.12.2022
Çapa imzalanmışdır: 13.12.2022
Şərti çap vərəqi 4.5
Format 60X84 1/16
Tirajı 300

Kitab "Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən
istifadə olunmaqla ofset üsulu ilə çap edilmişdir.
e-mail: orxan.npm@gmail.com

"Orxan" Nəşriyyat və Poliqrafiya
müəssisəsi:
Direktor: Cəfər Əzizoğlu

Ünvan: Bakı şəhəri
Dərnəgül qəsəbəsi, 3105-ci məhəllə
Tel:(+99412) 562 83 03
Tel:(+99412) 561 58 33



Muradova Zəhra Bilal qızı 31.03.1949-cu ildə Naxçıvan şəhərində anadan olub. Orta təhsilini Naxçıvan şəhərində almışdır. Bakı Dövlət Universitetinin "Kimya" fakültəsini və Azərbaycan İqtisad Universitetinin "Beynəlxalq İqtisadi əlaqələr" fakültəsini bitirmişdir. Pedaqogika üzrə elmlər doktoru, Beynəlxalq Qadınlar Cəmiyyətinin və Azərbaycan Respublikası Əsilzadələr Məclisinin üzvü, "M-Studio" şirkətinin elmi məsləhətçisidir. Ali kateqoriyalı kimya müəllimi və metodist müəllim adlarına layiq görülmüşdür. 14 kitab, 2 monoqrafiya, 200-ə yaxın elmi-metodik məqalələrin və tezislərin müəllifidir. Hal-hazırda Azərbaycan Respublikası Təhsil İnstitutunda aparıcı elmi işçi vəzifəsində çalışır. Ailəlidir, 1 oğlu, 2 qız övladı var.